ƏBÜLFƏT MƏDƏTOĞLU

# «ÜRƏYİMDƏKİ SƏNSƏN»

"ÇİNAR-ÇAP"
BAKI – 2009

Az2
C12

Əbülfət Mədətoğlu
M45 «ÜRƏYİMDƏKİ SƏNSƏN». Bakı, **“ÇİNAR-ÇAP” nəşriyyatı,** 2010, – 248 s.

C $\frac{4702060200}{177}$

© **“ÇİNAR-ÇAP” , 2010**

# ÖN SÖZ

## Müəllifdən...

Hə, dəyərli həmsöhbətim! Bir az mənə yaxın otur... və məni sakitcə dinləməyə çalış...

Əlində tutduğun bu kitab «Yanan məktub»un üstünü kül örtmüş, azacıq ütülmüş hissəsidi, bəlkə də davamıdır... Bu şeirlər Allahımın mənə yaşatdıqlarının misralara çevrilmiş pıçıltılarıdı... və mən sadəcə onları səsdən, duyğudan sözə çeirmişəm. İstəmişəm ki, Siz onlarla tələsmədən, sakit birguşədə baş-başa qalanda o sözlər Sizin üçün sözdən həzin duyğulara, səslərə çevrilib varlığınızı icazəsiz-filansız çox-çox uzaqlara alıb aparsın...

Həyatda böyük sevgilərin iynə ucu boydasını özündə daşıya bilən insanın yaramaz, əclaf, naqis ola biləcəyinə heç vaxt inanmamışam. Düşüncəmə görə sevgi gün işığıdı. Ən qatı dumanında sinəsini hansısa bir yolla dəlib keçə bilir. Odur ki, ürəyimdəki sevinclə-kədəri, vüsalla həsrəti diz-dizə, göz-gözə, nəfəs-nəfəsə, lap elə bir-birinə hopmuş şəkildə necə yaşamışamsa, heç bir çəkincəksiz elə o cür də, giz-

lətmədən ÜRƏYİMDƏKİ SƏNSƏN! – deyərək yolunun üstünə çıxdım. İstədim ki, ÜRƏYİMDƏKİ SƏNƏ deyəcəklərim nə varsa, yəni ürəyimdə olanları özümə ÜRƏYİMƏ deyim!

Hə, bir də unutmayın ki, «Ürəyimdəki sənsən» sevgililərin kitabıdı!..

***Zəlimxan Yaqub,***

Xalq şairi

# KƏDƏRİ İNCİTMƏYƏN ŞAİR

Əbülfət Mədətoğlu... Bu imza mənim üçün çoxdan doğmalaşıb. Bu doğmalığın əsasında dərd dayanır. Ağrı-acıları heç vaxt tükənməyən Borçalının taleyi, Borçalının dərdi. Bağrımızın başında qara yaraya çevrilmiş, itirilmiş, talan olmuş Qarabağ dərdi. Mənim dərdim köhnə dərddi, Nadir şahdan, Adil şahdan üzü bəri dəvə karvanı kimi o ağır yükü daşımaqla məşğuluq. «Dəvəsi ölmüş ərəbəm, dözərəm hər zülümə». Bu bayatı insan oğluna hər şeyi deyir. Adı «qara» sözüylə başlayan, günü göy əskiyə bükülən, «Tehran cənntə dönsə, yaddan çıxmaz Qarabağ» deyimi ilə dərdini tarixin yaddaşına həkk edən Qarabağın qara günləri, dillə deyilməsi mümkün olmayan faciələri Əbülfətin baş mövzusudur. Min illərin təsdiq olunmuş bədii bir həqiqəti var. Dərdi olmayan şairin özü yoxdur. Bu mənada Əbülfətin taleyi elə gətirib ki, o, bir şair kimi hara baxırsa, kimə baxırsa orda öz içini, öz daxili dünyasını, öz dərdini görür. Özünü dərd dəlisi adlandıran, kədəri incitməyən, qəmin doğma adamına çevrilən şairin yaradıcılığı bütövlükdə bütün dərd çəkənlərin, qəm daşıyanalrın poeziyasıdır.

«Tətiyi çəkirəm, ölüm açılmır». Tətik, intihar, ölüm... poeziyanın əbədi mövzusu.

Olumla ölümün arasındakı tərəddüdlər, şübhələr, qabarığ-çəkilmələr, faciələr...

Əbülfət ürəyində olan ağrıların, narahatlıqların hamısını öz sevgisinə və sevgilisinə müraciətlə dilə gətirdiyi üçün oxucunu, dinləyicini yormur, bezdirmir. Əksinə onları incə duyğuların, zərif hisslərin diliylə daha da doğmalaşdırır, özünə çəkir, poetik sözün ovsununa salır.

*Dünya cənnət, mən qərib,*
*Könlüm səntək gül dərib.*
*Tanrım səni göndərib –*
*Sevgi nədir – qənim mən.*

Bəli, uca Tanrı sevgini insanlara dünyanı dərk etmək üçün göndərib, göndərib ki, insan həmişə diri və durru, pak və təmiz, zərif və həssas olmağı, öz gəlişiylə dünyanı gözəlləşdirməyi bacarsın. «Min Əbülfət qəlpələnsin ki, bir məhəbbət var ola bilsin». Yer üstə möhkəm dayanmaq üçün də, göy üzünün qapısını açmaq üçün də insana – xüsusən də şairə böyük sevgi gərəkdi. Bu, Əbülfət Mədətoğlunun poetik qənaətidir.

*Sən mənə bənd olma, tutaq ki, mən heç,*
*Görmək istəmirsən – gözünü yum keç.*
*Kimi axtarırsan bax onu bil, seç –*
*Aparma özünlə – o sənin deyil.*

**Baxıb gözlərimdən yağan yağışa,**
**Dilimdə alışan bu yalvarışa,**
**Nə olar, sən onu son kəz bağışla,**
**Aparma özünlə – o sənin deyil.**

Örnək kimi gətirdiyim bu sətirlər sfrı sevgi şeiri olsa da, Tanrıya dua kimi səslənir. Mənə belə gəlir ki, dünyanın nə qədər şirin və səmim şeirləri varsa onların hamısı Tanrıya açılan əllərin, göylərə dikilən gözlərin, Allaha bağlanan ümidlərin barı-bəhrəsidir və dünya bu barın-bəhrənin hesabına işıqlanır.

**Başına dolanmağa –**
**And içib – pir gəzirəm**

– deyən şairin ocağı da, pir idə, ilahi sevgisi də insandır, Allahın möcüzə kimi yaratdığı insan. Əbülfət də bir şair kimi, bir insan və vətəndaş kimi o insanın iç dünyasını, sirli-sehrli könül aləmini açmaq, kəşf etmək, anlamaq üçün yazıb-yaradır. Bu da şair üçün, dünyanı poetik deyimlərlə gözəlləşdirmək üçün insana, insanlığa, bəşəriyyətə hava-su kimi lazımdır. Dünyanın bütün ağırlığı poetik sözün çiyninə düşür. Bu ilahi yükü daşımaqda ayaqların yorulmasın, çiyinlərin ağrımasın, Əbülfət Mədətoğlu!

***21.09.2009***

◆◆◆

Ötən günlərimə təəssüf etmə.
Ağır oturmuşam, batman gəlmişəm.
Bəzən günlər olub alıb belimə
Çaparaq gəlmişəm, atnan gəlmişəm.

Həyatın enişin, yoxuşun görüb
Gücüm yetən yerdə çox işin görüb
Bəzən də dərdlərin doğuşun görüb-
Ürəiy dörd yerdən çatla gəlmişəm.

Olubdu daş atan qaçqın adıma,
Olubdu əl tutan, çatan dadıma.
Özüm sarğı qoyub qol-qanadıma.
Kədər şairi tək adnan gəlmişəm.

◆◆◆

Metro girişində
Bir parça
Karton üstündə
Əyləşib
Qucağında
Əl boyda
Körpəsi olan
Bir qadın
Çörək pulu
Dilənir.
Görəsən-
Şirin öpüşlərin
Gizli görüşlərin
Yaşayanda
Dadın-
Heç ağlına
Gətirə bilirdimi
Doğacağı
Uşağın
İndiki həyatın
Bu gün
Metro girişində
Allahın adı ilə
Dilənən qadın...

◆◆◆

ay qərib adamlar mənim,
halıma baxıb kövrəlin
hardasa günah etmişəm –
qəzəbi tutub göylərin...

üstümə yağış ələyib
islanıb, quru çıxmışam
məni haqq özü bələyib –
hər şeydən duru çıxmışam

ay qərib adamlar, gəlin
halımdan hal xəbər alın
bir sevgi yolu gedirəm –
baş açıq, ayaq da yalın...

# Sənli dünyam

mən cismimlə ruhumun
arasında durmuşam
iki dünya bir olub
təzə dünya qurmuşam –
indi sənli dünyamı...

mən gecə ilə gündüzün
ayrıldığı yerdəyəm
sevincdən həsrətimin –
sıyrıldığı yerdəyəm
dönək sənli dünyama...

mən hər kiməm – fərq etməz
canım, ruhum sadağan
bizi hamı dərk etməz –
ora giriş qadağan! –
mənim sənli dünyama...

◆◆◆

mən bir sevgi dəlisi,
sən ilahi bir səcdə
hər sözün, hər baxışın
gətirir məni vəcdə –
qız, könlünü ver mənə!

dünya yuxu, ya nağıl
varmı özgə mən ağıl
gör halımı, insaf et –
ol mələk misal, fağır
qız, könlünü ver mənə!

gözdən od ələyirəm,
bir həsrət bələyirəm
sən izinsiz almısan
mən dilək diləyirəm:
- qız, könlünü ver mənə!

◆◆◆

mən hələ də
öyrənə bilməmişəm,
qaçan yuxularımın
kimdən
sığınacaq istədiyini...
kimə pənah aparıb,
kimə sirr verdiyini...
mən hələ də
gözlərimdə sökülən
və gözlərimdən tökülən
dan yerinin
öyrənə bilməmişəm
məndən sənə
nə dediyini...

◆◆◆

mən qisməti didəsində
ümidləri daş üstündə
olan bəndə...

mən işığı qibləsində
arzuları sac üstündə
yanan bəndə...
mən yuxusu
ulduzlarda
ürəyisə yalnız səndə
olan bəndə...

soruşsalar kimliyini
sən ürəyi yalnız
məndə
qalan bəndə...

qismətimi, ümidimi
işığımı
lap arzumu
yuxumu da
səndə tapıb,
məndə gördüm

heç bilmədim
necə düşdüm
ürəyimdən
sevgi adlı
bu tilsimə,
mən bu bəndə...

yəqin
mənim
sevgi adlı
bu dünyamı
bəzəməkçün
yer üzünə gəldin
sən də!

# Çiçəyim

nə yaxşı gəldin ömrümə
yaz gülüm, bahar çiçəyim
könlümü vermişəm sənə –
özünlə apar çiçəyim.

sirr vermişdim – sirr idim də
çox göynəyib kiridim də
ruhum arı cilidində –
səni bal, tapar çiçəyim.

səninçün torpaq kimiyəm
göyərtsən yarpaq kimiyəm
incitsən saplaq kimiyəm –
ürəyim qopar çiçəyim!

## Bilmirəm

içimdə  havasızlıq
canımda iynə-sancaq...
dərdlərdən ən utancaq
dərd mənə düşüb ancaq –

danışdıra bilmirəm...
ruhmunun yarpaqları
payız xəzəli kimi
səni Tanrım yaradıb
dünya gözəli kimi
danışdıra bilmirəm.

sən mənim varlığımda
amma yenə əl çatmır
yaddan çıxsa adım da –
bu eşq məni alçaltmır
danışdıra bilmirəm.

bu ömür ərmağanı
şam kimi əridirəm
ürəyimi sıxıram –
guya ki, kiridirəm –
alışdıra bilmirəm.

◆◆◆

Ürəyimi çırpa bilsəm
Adın, şəklin tökülər.
Adın, şəklin tökülən-
Ürək min yerdən sökülər...

Qalar quruca cəsədim
Ölər dünyaya həsədim
Təkcə bir sevgi bəslədim-
O da xəzələ bükülər.

Dönər bu yollar geriyə
Düşər bir ümid həriyə.
Mən, həsrətlə şəriyə-
Nə düşsə göyə çəkilər.

# Demədin

əlində bayram sovqatı,
dilində mələk duası.
telində günəş şüası,
könlündə bəs nə gətirdin?
demədin ...
adıma iki şam yandır,
oduma alışan yandır.
dedilər bu quruca qandı.
mən susdum, sən nə itirdin?
demədin ...
yandırıb-yaxmadan odda,
sən şam əritdin mən adda.
bir-bir barmağını qatda,
görüm nə əkdin, nə bitirdin?
demədin ...
Sən bir sevgi günəşi,
Könül tərənəsisən.
Gnəş olduğun qədər
Günəş pərvapnəsisən.
Ruhuma hopduğun tək,
Ruhunu hər şey bitdi.
Azın, çoxun içində,
Fərqli ünvan sənindi.
Nəhaq, mələk biçimdə
Qəsd edirsən sən indii.
Yandırdığın, yandığın
Tərəflər sən özünsən.
Məni özün sanırdın,
Sən özünü üzürsən.

◆◆◆

indiki anda heç kəsəm
quru nəfəs, titrək səsəm,
sənə canım qurban desəm –
inanarsan?!

gözümdəki son işartı
dili olsa danışardı
duysan sənsiz canım yandı –
inanarsan?

bir yarımçıq yazı kimi
köksü dağlı qazi kimi
ölsəm bəxtdən razı kimi –
inanarsan?

◆◆◆

Yandırılmış məktubam
Səp külümü küləyə
Bu zülmü verəcəydin
Niyə hopdun ürəyə?

Acı çəkməyim balsa,
Sevgim ömründə xalsa.
Dilim yanında lalsa-
Tapşır məni fələyə.

Gözüm dolub yağışla
Sinəmdə qəm naxışla,
Ruhuma can bağışla-
Qovuşsun sən mələyə!

## Verməırəm sənə...

İmkan varkən seçək qəmi,
Şərbət kimi içək qəmi.
Bir-birindən göyçək qəmi-
Verməırəm, verməırəm sənə.

Başımda bir dəli hava,
Həm cəfadı, həm də səfa
Vallah-billah, onu rəva
Görmərəm, gərmərəm sənə.

Məcnun düşənə düşəli,
Ürək adlı bu şüşəni.
Qoyub, qəmli bənövşəni-
Verməırəm, verməırəm sənə.

◆♦◆

çök sinəmə duman tək
özümü dağ sanım mən.
dönüm sonsuz ümidə –
hər an səni anım mən...

qəm sanki iynə-sapdı
hər yerdə məni tapdı.
şimşəkdən çınqı qopdu –
alışdırdı, yanım mən.

dünya cənnət – mən qərib
könlüm sən tək gül dərib.
Tanrım səni göndərib –
sevgi nədi – qanım mən.

◆◆◆

Mən səni sevmədiyim kimi,
Sən məni
Sevə bilsəydin...
Mən nifrət etdiyim kimi,
Sən
nifrət edə bilsəydin.
Bu sevgiylə nifrətin
Üst-üstə gəlişindən
Dünya çoxdan dağılardı
Sənin
Mənasını mən duyduğum
Gülüşündən...

◆◆◆

Belə olmaz, canım-gözüm
Bu həsrətdə bir açar tap.
Dodağımda qalıb sözüm-
Dinləməyə bir macal tap.

Qaçma dayan, üzmə məni.
Mən dözümü hardan alım.
Cəlladsanasa öldür,qurtar-
Mələksənsə-qadan alım.

Qıyma xəlvət tüstülənim,
Odum sənə toxunmasın.
Necə yazım şerləri-
Sənin adın oxunmasın.

Sənə nə var, sən könlümü
Ovlamısan bir xal ilə.
Sevgindən dəli ömrümü-
Götür olsun bir xatirə.

◆◆◆

bük sən məni qəzetə
bələyim qəzet olsun
ağrıdığım bu yerdə –
fələyim qəzet olsun.
teli qırılsın sazın,
bəd gəldi mənim yazım
mən sənə məktub yazım –
kələyim qəzet olsun.

dərd bəsləsin, böyütsün.
gendən baxıb öyünsün...
qələm məni üyütsün –
ələyim qəzet olsun!

◆◆◆

ağrılar
onsuz da
nəfəsimi kəsib,
təbiyyətin
şıltaqlığı da
bu yandan –
elə bil qəsdimə durub.
barı sən
bir şad xəbər de –
de ki,
ağrımırsan!
zəng vurub...

## Gözlə

gəlirəm sənə doğru,
səbrin çatınca gözlə.
ruhum könlündə gəmi –
gəmim batınca gözlə.

hər çınqı ümid şamı
göy üzü ruhun damı
unuda bilər hamı –
gələn yardısa, gözlə!

o ki, ocaq, pir deyil
ləngiməyi sir deyil.
günahları bir deyil –
güzəşti varsa, gözlə!
candan can alan kimi
qandan qan alan kimi
lap belə balan kimi –
dizdə yatınca gözlə!

◆◆◆

hərdən lal oluram sənin önündə
nə qədər cəhd etsəm – dilim açılmır...
hərdən söz tapmıram, donub qalıram
çiçəyim çırtlamır, gülüm açılmır.

niyə belə olur başına dönüm
deyirdin havayı güllədi ölüm...
istədim bir onu yaxından görüm
tətiyi çəkirəm – ölüm açılmır.

görmüşəm dərd-qəmin çoxun, həm azın
çəkməyə gücüm var – hələ də nazın.
gözüm yolundadı gələcək yazın
payız, qış əlindən könlüm açılmır.

tay kimə lazımdır hayım, harayım
dağılıb yurd-yuvam, uçub sarayım.
istədim bu üç-dörd teli darayım –
qolum tərpənmədi, əlim açılmır.

◆◆◆

heç kimdən incik deyiləm
incidiyim yazı-bəxtdi...
mən sevib xoşbəxt oluram
sevənim – yazıq bədbəxtdi...

ruhumu göydən endirmək
pak sevgimə don geydirmək
nəvaziş edib dindirmək –
qismət deyil – bəxtə-bəxtdi...

min cürədi kefim, halım
cavab umur hər sualım
dərdlərdən süzülür balım –
içim, gedim – vaxt o vaxtdı...

◆◆◆

mən nə deyim önündəyəm,
önündə
için-için öldüyümü
görürsən
Füzulinin Məcnunun
günündə –
öz-özümə güldüyümü
görürsən.
daş-divara yazılası adam var
baş divardan asılası şəklim
məni görmək istəməyən adım var
tilsim elə, Allah, göyə çəkilim.

◆◆◆

xəyallarım əlçatmazdı
kim olsam belə
dərd də mənə əl atmazdı
söz salsam belə
yuxularda görünməyən
hissələrə bölünməyən
bağrımı dəldi

yerdən-göydən uzaq kimi
ortada qaldım
mən canımı
buzlaq kimi
odlara saldım
xəyalların dünyasından
geri dönüb –
gör kim oldum
doymadığım
sevgimizin
röyasından
sənə qalan görkmü oldu
utancınam,
ya baş tacın
hansın seçim
hansın bilim
hansını açım –
özüm üçün
bu sirlərin
ay əlacım...

◆◆◆

belə bir
fikir var ki,
nə vaxtsa
iki olmuşam
iki –
biri ərkli,
arzulu –
biri də ki,
bu həsrətli
ömrü yaşayır
üzüsulu –
hələ ki...

◆◆◆

yenə bu səhər
sükutla başladı
yenə asıldım
pəncərənin önündən...
hər şey donuq bir halda,
heç quşlar da
nəğməsini dəyişmədi
bu yaz günündə...
açıq qapımdan
kimsə keçmir
bağlı pəncərəmdən
həsrət dolur içəri...
Tanrımın da gözü
məndən su içmir –
yer tapa bilmirəm
otağımda –
köçəriyəm, köçəri...

yenə bu səhər
sükutun buzunu
əridir
ılıq xatirələr
ağlımdan gəlib keçir
bilirsən nələr –
qəfil ölümümün
ertəsi günü
səni üstümə
gətirərlər
yanağı şehli
bənövşə kimi...

◆◆◆

ürək əldən küsüb, əl də ürəkdən,
kiminlə danışım, kimə yazdırım?
qoparıb sinəmdən, kəsib biləkdən,
yer göstər onları Qoşa asdırım.

taleh oyundur nə deyə billəm,
harda başlayacaq, bitəcək harda.
ömür bahasına qazandıqlarım,
görəsən solacaq, itəcək harda.

həsrətmi döyəcək qapımı bir gün,
yoxsa qar yağacaq ömrümə bu an?
gözümdə yol izi, köksümdə düyün –
mənmi olacağam boynunu buran?

fikirlər yüz yerdən didir içimi,
danışmaq qəbahət, susmaqsa günah.
necə götürüblər mənim ölçümü –
geydiyim kədərdi, çəkdiyimsə ah.

◆◆◆

can qopursa
candan
bu, ağrıdan
daha çox zülümdü...
bü zülmü
çəkən isə
ürəkdi,
bir də vicdan
deməli,
candan-can ayırlaması
heç kimin
dəfninə gəlmədiyi
pünhan bir ölümdü
gizlə hələ...
tələsmə
«ölümün mübarək»
deməyə.

◆◆◆

gəl otur, gəl birlikdə
vərəqləyək dünəni
qarşılayaq təmkinlə –
üstümüzə dönəni...

gəl otur, gəl üzbəüz
bir olan qəmdən dadaq.
sonra da özümüzü-
bal dadıyla aldadaq.

gəl otur, gəl dizində
bir çimdik yuxu tapım.
tamamlansın izninlə –
mənim ömür, kitabım.

◆◆◆

Ramiz Rövşənə
axır ki,
tapdım səni
beş gün sonra
soyuq
baş daşımı
qucaqlayıb
ağlayacaq
qara saçlı
qala paltarlı
qara günlü –
qadın...
dur gəl,
indi sarıl boynuma
hamının
gözü önündə –
görsünlər
və bilsinlər
məndən
sonra
baş daşımı
qucaqlayanda
pıçıltılara
səbəb
olmasın adın!

◆◆◆

canım, canımsan mənim
bir olan ürək haqqı.
ikimizin böldüyü –
eşq adlı çörək haqqı.

günəşə üz tutmuram,
aya da biganəyəm
hər şeyi unuduram –
tək sənə pərvanəyəm.

canım, hər yerdə sənsən
hər an sənin nəfəsin.
qismən canım ödəyər –
verdiyinin əvəzin.

◆◆◆

çətindi anları saymaq
nə sürəti
imkan vermir
nə hökmü...
bu anların
içində
birinə sahib
çıxmaq
ömrün yarpaq
tökümü...
eləcə xatirədi
vərəqlənir,
oxunur...
sahib
çıxdığın
ansa –
ilıq
göz yaşlarındı
yanağına
toxunur...
təsəlli üçün...

◆◆◆

əslində
sən özün
mənim üçün
Allah qələmi ilə
yazılmış
şersən...
bunu sənə
demişəm –
özün də bilirsən
bəs onda niyə,
gülüm, məndən
hər gün şer
istəyirsən...
bəlkə
müqaisə edirsən?

◆◆◆

mən səni
düşündükcə
ağrım-acım
bal olur
elə bil qorxusundan –
dərd də susub
lal olur.
tək xəyalın
at çapır
ömrümün ormanında,
mən hər an yanındayam,
bəs sən hardasan,
harda? –
bu dünyaya
sevgimdə
yoxsa ki, üsyanımda
sarılırsan boynuma –
sevgimə inananda...

◆◆◆

mən hara gedirəm bu yolla belə,
gözündən yorulmuş dərvişlər kimi.
mən hara gedirəm son ümidini,
birinci cəhdində dərmişlər kimi.

mən hara gedirəm yolu bilmədən,
dərd almış həm sağı, solu bilmədən.
ürəyim doludur, dolu, bilmədən –
qalmışam, gün altda sərmişlər kimi.

mən hara gedirəm, çaşmışam bəlkə,
getdiyim ünvanı aşmışam bəlkə?
torpaqmı, ağacmı, daşmışam, bəlkə,
susum əsəbini gərmişlər kimi.

◆◆◆

mən bir az dərd dəlisi
bir az söz adamıyam
incitmirəm kədəri –
onun öz adamıyam

xəyalım qərar tutan,
budaqlar budam-budam...
tüstüsün dağlar udan
ocaq, köz adamıyam.

heç nəyə baş əyməyən
ruhu göydə əylənən
için-için göynəyən –
bar az, döz, adamıyam!

◆◆◆

gözləmək –
ümidi olsa da
qanında bir
təlaş var.
istədiyi an
partlamağa
hazırdı.
heç nə demədən –
öz qanına bulaşar.
gözləyə-gözləyə
qırılan
ümid tellərini
əvəz edən –
yeniləri
bir-birinə calanar!
buna
həsrətin əzabına
dözənlər
dözə-dözə
ürəklərini
üzənlər
yalnız inanır!
axı inam yaşadır
sevgini...

◆◆◆

könlümdən
keçən arzudu
kaş hər gün
söndürməyə çalışdığım
odun –
hisinə bulanıb
külünə batım.
və hər gün də
o külün içindən
bir çınqı
qor tapım
yenidən alışım
təzədən yanım
təki sənin əlinlə
söndürülsün
alışan canım!
indi
əlindəki
oddu yoxsa su –
özün de,
mən də inanım!

◆♦◆

mən indi işıqfor tək
haldan-hala düşürəm.
Bakı havası  kimi,
anbaan dəyişirəm
içim savaş meydanıdı –
həsrətlə döyüşürəm –
bacardığım bu...
sən isə –
fikrin dağılsın deyə
dur, əl-üzünü yu! –

◆◆◆

bilirəm mən nakam aşiq,
sənə özgə yar olacaq.
gün bitəcək, gül qarışıq –
yaxalığı dar olacaq.

yayın qora bişirəni,
qor içində eşir məni
dodağımın üşüdəni –
o ağ sinə – qar olacaq.

dəniz kimi ləpələnib
dərd ələnib, təpələnib...
min Əbülfət qəlpələnib –
bir məhəbbət var olacaq.

◆♦◆

mən adsızlar içindən
bir ad aldım – gətirdim!
qoşalaşıb uçmağa –
qanad aldım – gətirdim...

yetmirsə gücüm nəyə,
nə var de, küsünmyə...
diz-dizə isinməyə –
bir od aldım gətirdim.

hərə bir yol yolçusu,
su axtarır, yolçu, su...

ömrümüzün ölçüsü –
murad aldım gətirdim.

yönüm, qibləm hər an sən,
dilim, dinim, Quran sən...
qorxma, bir də yorulsan –
ağ at aldım, gətirdim...

tərs yozum var, tərs yazı
öyrənirəm dərs – yazı!
mən yazdığım hər yazı –
bal! – dad aldım gətirdim.

◆◆◆

ay Allah, bu gecəni
mən necə yatıb-durdum
gündüz gördüklərimi –
gecə yenidən qurdum.

saç üzümə dağıldı,
yanaq öpdü- yanağı...
əlin tapıb sığındı –
əllərimin qonağı.
dodaqların ucunda
adın oldu tər çiçək
həsədindən ölərdi –
bu an sənin – hər çiçək!

qoy sarılım boynuna,
bu gün dursun yerində
hənrim dolsun qoynuna –
çiçəklənsin şerim də!

◆◆◆

bir anlıq
ağlımdan gəlib keçdi
sahildəki
balıqqulaqlarının
hamısın
saymaq kimi
bir dəlilik...
sonra da mavi ləpələrdən
sənə bir gəlinlik
yaxasının
gül xonçası da
ürəyim...
hardasan
qızıl balıq,
baxışlarımı
sancmışam dənizə,
dolaş kipriklərimə
üz sahilə...
mən də səndən
indi ağlımdan
gəlib
keçənləri diləyim
istəyənin
bir üzü qara
boylanma ora-bura
özün bilərsən
daha
özgə nə deyim...

◆◆◆

gözlərim axtarışda.
xəyalım uzaqlarda...
əllərim qoynumda –
özümsə yalqızlıqda
səpələnib
hər tərəfə –
axtarıram...
qarşılaşmaq
ümidi ilə...
yaşamaq da çətin,
sevmək də –
bu yaşda!
ürək yerindən oynayır,
çarpazlaşmış
qolların –
əvəzinə kəsişsəydi yollarım –
sonu çatardı
yalqızlığımın!
yığışıb hər tərəfdən –
göydən, yerdən –
yaşardım
bir gilə ümid ilə!

◆◆◆

əl boyda güzgü kimi
götür bax, daran mənə.
bütünlüklə sən mənsən –
bəs yaddı haran mənə?!
axşamdan səhərə tək
sinəmdə öpüşlər ək
könlümü dağlara çək –
heç düşmür aran mənə...

dünya tamam bəyazdı
qoynunda qış da yazdı.
sənsizlik qar, ayazdı –
dağ çəkir boran mənə.

◆◆◆

bilmirəm hardan başlayıb
hardan bitirim sözümü
dünyaya çağır – mən gəlib
orda itirim özümü.

qəm nə imiş duyuruq tək,
ürək sıxılır yumruq tək
çağır nə olar simurq tək
sənə yetirim özümü.

yer darısqal, göysə ada
ruhum dincəlmir orda da
ölüb qalmışam ortada
necə götürüm özümü.

## Məni

dərdimin başı batsın
başdan çıxartdı məni.
dörd tərəfim daş idi –
daşdan çıxartdı məni.

damarıma qan vurdu
lap o başdan – dan vurdu.
quru bir oyun qurdu –
yaşdan çıxartdı məni.

səmt dəyişdi, taleh, baxt
çiçək oldu, çiçək baxt!
dərd özü olub bədbaxt –
qışdan çıxartdı məni!

◆◆◆

indi sənsizliyimə
sənli günlərimdən
danışıram...
özüm də hiss etmədən
gizlicə
həsrətindən soruşuram –
o söz hələ deyilməyib
bu qor hələ alışmayıb
ümid hlə üzülməyib,
ürək hələ.
ayrılıqla barışmayıb
niyə belə dəyişmisən,
niyə belə
buz olmusan?..

dil-dil ötən ürəyimdə
söz bulağı,
söz çəməni
niyə belə dəyişmisən
nədən indi
danışmayan
susub-baxan qız olmusan.

◆◆◆

qəribədi hərdən
heç nədən
özüm-özümdən küsürəm...
axtarıb səni tapmır –
pərişan qayıdır üstümə
bax, onda –
gözlərim düşür gözümdən
gözümdən küsürəm...
səsim qırılır içimdə
didilir qəm dimdiyimdə
yadımdan çıxır
ovcumun içi kimi
bildiyim də –
sözümdən küsürəm...
bir sonsuz xəyala dalıb
dünyanı çiynimə alıb
gəzirəm üzümə salıb
dünyam gör nə günə qalıb
məndən də dözümsüz olub –
dözümdən küsürəm –
eləcə özümdən küsürəm...

**

◆◆◆

mən bir qəmin adamı,
mənnən işin olmasın
gəzmə həmin adamı
qoy gözlərin dolmasın

həsrəti dərk edincə
ruh məni tərk edincə...
bu qədər bərk gedincə –
olmaz ki, iz qalmasın?!

gözüm yollar bitirsin
yollar səni gətirsin...
məni məndən götürsün –
səni məndən alınca...

◆◆◆

hər səhər
içimdəki
ağrılarla səsləşən
bir xəbər
kəsir
başımın üstün
hər səhər
dünəndə
qaldığını düşündüyüm
nəsnələr
yenə qayğıya
çevrilir
mənim üçün...
və hər səhərin
gəlişinə
şükür edə-edə
mən də bir təhər
çalışıram
qarşıdakı
səhərlərə doğru
yol getməyə –
içimdə
sevinc, qəhər...

◆◆◆

yerdə yerim qalmayıb
göy üzü, aç qapını
yaman düyün salmışam –
dərdlərimin sapını

dərdlərim xəstə, qısır
ümidim əlin qısır
Allahım baxır, susur –
üzə-üzə canımı

səndən özgə gözümdə
ürəyimdə, sözümdə
yox bir kimsə, özüm də –
halal etdim qanımı.

◆◆◆

ruhum dolanır başına,
baxmadan ötən yaşına
əgər gəlirsə xoşuna –
sarıl boynuma

böyüyür səbrimin şişi,
əriyir dağ boyda kişi.
burax, gördüyün bu işi –
sarıl boynuma.

dərsmidi bu, yoxsa sınaq?
bəlkə də bir haqlı qınaq...
dur, baş-başa biz dayanaq –
sarıl boynuma.

◆◆◆

öyrətdiniz siz məni
yanağa göz yaşı tək,
kövrəltdiniz siz məni –
tək qoymaqla, gülüm, tək!

ağır zaman, ağır gün,
gah şıltaq, gah fağır gün.
lal sular tək axır gün –
şəklimi gözünə çək.

ümidim son yarpaqdır
son yarpaq – son yar baxdı!
ürəyim xam torpaqdı –
şumla, vüsalını ək!

# Deyil

döz! – deyirsən, dözmək olmur
can şirindi bezmək olmur
hər çiçəyi üzmək olmur –
üzüb, görürsən o deyil.

xəyal qurursan dağılır,
qala qurursan yıxılır.
ürək gül kimi sıxılır,
üzüb, görürsən o deyil.

yerdə yerin bir künc olur,
nə edirsən gülünc olur
ümidlərin də linc olur,
dözüb, görürsən o deyil

ha desən də, ta bu sondu
bir də gördün nəsə oldu
əlində piyalən doldu
süzüb, görürsən o deyil

Allah yazan yazı birdi
qışı birdi, yazı birdi
sevginin də nazı birdi.
çözüb, görürsən o deyil.

◆◆◆

hər gün
metronun üstündə
siqaret əlimdə
dərdim könlümdə
dayanıb
yerin
tarazlığını
pozuram...
bəşəri
cinayətdi
ən ağır
cəzaya da
hazıram!
təki
gözlədiyimin
diqqətini
çəkə bilim...

◆◆◆

mənə baxıb,
özünü oda atma
mənim oda davamlığım
dəfələrlə yoxlanılıb...
hətta,
bu barədə
zəruri qeydlər
tibbi
anketdə saxlanılıb...

sənsə, yaxşı fikirləş
odla oynama.
alışıb yanarsan
qarışarsan mənə...
zərifsən –
qıymıram,
heyfim gəlir
sənə!

◆◆◆

mən dərdin oğluyam – dərdin balası
fikrimi kimlərsə yozdu da bəlkə
səltənət qurmuşam –
dərddi qalası
mənim həyatımdı bu kiçik ölkə!

ondan qaçmamışam, gizlənməmişəm
qapım, pəncərəm də açıq üzünə.
o məndən, mən ondan gizlənməmişəm
can bir qəlb olmuşuq – ancaq düzünə.

etibar görmüşəm hər zaman ondan
yanımdan bir iynə ucu qaçmayıb
dərdim dərdimi də dərdi tək çəkib
mənsiz işığa da gözün açmayıb.

baş-başa qalmışıq ömür nədirsə
mən onun oğluyam, o mənim balam
sən də heç çəkinmə – sənə gəldisə
sat mənə! – hazıram dərdini alam!

◆◆◆

göyün altda, yerin üstə tək ağac
mənəm simsar, gətir sən də ək ağac...
bacarırsan mən görkəmdə,
çək ağac –
budağından asılmağa
ip olsun...
eldən kənar, gözdən uzaq
söz qərib
söz bagından hərə bir cür
söz dərib.
deyəcəyəm, vədə yetib, söz
gəlib –
inanmıram, mənə oxşar
tip olsun.
əl qabardı, diz döyənək, bel

yağır
göy kişnəyir, buludlardan
sel yağır.
çıxmaq üçün bu zamanda el ağır –
dərdlərindən, gərək sıra
kip olsun...

◆◆◆

darıxdım
və yığdım nömrəni...
telefonun
şəbəkə xidməti
xaricindədir
bəs özün hardasan?
yəqin ki,
qayğısızsan,
ətrafında sevənlərin
başın elə qarışıb ki,
darıxmırsan...
yoxsa...
xatırlardın məni
qaldırıb telefonu
yığardın nömrəmi –
görərdin ki,
xətdəyəm
təkcə əhatəndə yox,
həm də ürəyindəki,
kövrək məhəbbətdəyəm!

◆◆◆

bəlkə bir iş görək,
indiyədək heç kəsin
görmədiyi –
ağıllı bir iş
ürəklərin sərgisini açaq...
əvvəl
biz ürəyimizi nümayiş etdirək
hər ikisini,
sonra dostlarımız
daha sonra qohumlarımız,
tanışlarımız
və adamlarımız...
ürək sərgisində
yəqin ki,
ortaya çıxacaq
günahlarımız,
yalançı ağrılarımız
və bir də
«ikimizin bir ürəyi var»
qrifli saxtakarlığımız.

◆◆◆

səhərə kimi
yatağımı daşımışam
otaqdan-otağa,
yuxum gəlməyib
səhərə kimi
otaqları daşımışam
yataqdan-yatağa,
heç kim bilməyib
qulaqlarımdakı səsim
alov tək
qarsıyıb canımı.
Allah,
heç kim
döyməsin,
heç kim açmasın
qapımı,
indiki halımda.
yoxsa,
qaşığa yığmışam
üstünə tökəcəm qanımı!

◆◆◆

ömrü xırmanında ələkdən
keçir
dəyirman qapısı hələ
dumandı
taleh yazısını könlünə
köçür –
çiyninə duşəsi şələ gümandı.

hələ ki, düz tutub paya
çəpəri,
payasız kim salar saya çəpəri
hər gün üzləşdiyim qaya
çəpəri –
tapşıra bilməyim selə
gümandı.

azdan – az işlənib, çoxdan-
çox gedib
çoxu tər tökübdü, azı
tox gedib
hamı ürəyində bir cür
ox gedib –
hamıya qurulmuş cələ
gümandı.

çiçəyi oxşayıb, gülə tay tutub
susmalı məqamda dinib,
boy tutub
onu özü kimi soysüz soy
tutub –
nə qədərə gedəcək belə
gümandı.

baltalı əlində kol-kos
heç nədi,
vallah, bünövrədən kosa
seçmədi.
sevgi ürəyinə, Qana
keçmədi –
deməli, bu hiss də
elə gümandı.

◆◆◆

əllərimi aldı
ovcuna
başını
söykədi çiynimə
sanki
ağrılarımı
soyundurdu
sevinci geyindirdi
əynimə –
sevdiyim!

asıldım
mələklərin
ayağından
qısıldım ruhumun
sinəsinə
pıçıltılar
puçurlayan
dodağından –
aldığım
öpuşlərin
səsinə
qatdı atəşini –
sevdiyim!

unutdum

Tanrıdan başqa
hər kəsi
əli ovcumda,
nəfəsi nəfəsimdə
Leylidi
Məcnunun qibləsi
sıx, saxla məni
qollarınla
sinənin qəfəsində...

◆◆◆

mənə yazılmış
vəsiqənin
nömrəsi oxunmur –
üstünə ləkə düşüb
və mən
cənnətlə
cəhənnəmin
arasındakı yolun
kəsişməsində
növbə tutmuşam...
bu heç də
mənə toxunmur
çünki
ömrüm növbələrdə
keçib...
növbəmin də
ən zəruri anda
gəlib çatdığı
olmayıb...
olubsa da unutmuşam...
odur ki,
kompassız gəmi
kimi

quma oturmuşam...
nömərsi oxunmayan vəsiqəmlə
bu da ömürdü
elə belə
hələ ki, hələ.

◆◆◆

bölüşə bilmirəm üzüntüləri
qorxuram canının üzülməyindən
ancaq qəm paylayan namərd dünyanın
inciyim nəyindən,
küsüm nəyindən...

özümü aldatmaq istəyim bitir
xəyalla nə qədər gün sovmaq olar
günlərim şam kimi əriyib itir –
qəfil uralanıb, sovulmaq olar

sənə damla sevinc, damla təbəssüm
bəxş edə bilmirəm, bacarmıram mən
sevgim göz önündə, amma ki, gülüm –
sənə çox dərdimi açammıram mən...

◆◆◆

unuda bilsəydim dərdim olmazdı
qarışıb gedərdim insan selinə
unuda bilsəydim gözüm dolmazdı –
könlümü verməzdim dərdin əlinə.

unuda bilsəydim adiləşərdim,
sıradan sonuncu olardım bəlkə...
unuda bilsəydim – adi bəşərdim
nə özüm olardı, nə də ki, kölgəm.

unuda bilsəydim... faciə budu
hər şey süzgəc kimi keçir
canımdan
məni özün öldür –
unutmaq üçün –
qoyma yerə damsın amma
qanımdan...

◆◆◆

çəkəcəm ortalığa
canımı ağlayacam
olan, qalan bir qaşıq –
qanımı ağlayacam.

zaman dəyirmanında
çax-çaxa yer qalmayıb
hərdən dəyir hələ ki,
halıma susamayıb.

çoxdan köçübdü ruhum,
cismim mən boyda daşdı
Allah, deyən də yoxdu –
kirpiyin niyə yaşdı.

◆◆◆

mənim yuxularımın
sərhəddi pozulubdu
həmişə yuxularım
ancaq tərs yozulubdu.

bərpa etmək çətindi
pozulmuş bu sərhəddi
sanki aşılmalıdı –
keçilməyən Çin səddi

ən ağır yüküm olub
zamanın sualları
göydə ilişib qalıb –
könlümün duaları.

◆◆◆

mən talehlə vuruşuram
durmadan
kişi kimi, kürəyindən vurmadan...
sən ay məni nahaq yerə cırnadan –
mən heç kəsin payına göz dikmərəm.
haqqın yeri ürəyimin başında
dəyəri var – hətta qara daşın da
ömrüm boyu – lap elə bu yaşımda –
qaş düzəldib, göz öpürəm, tökmürəm.

öz gözümün mizanını bilirəm,
bu sevgimin yazanını bilirəm
çömçə gəzəb – qazanını bilirəm –
dib-dəhnədən dərdi nahaq çəkmirəm.

gördüyümü, duyduğumu köçürtdüm
köçürtdükcə ruha dönüb
köçürdüm
özüm bildim nəyi, necə
keçirdim –
ürəyimin tay sapını
sökmürəm

nə var qalsın bu meydanda
ortada
günahkarlar
ayaq-baş dı, ortada
bu Əbülfət arxayındı – orda da –
deyəcəkdi dərd biçirəm, əkmirəm.

◆◆◆

barmaqlarımı
qatlayıram
və sayıram
birinci – gözün, qaşın
ikinci – dilin, dodağın
üçüncü – oxşadıqca
qarışan saçların
dördüncü – pıçıltıdan
alışan yanaqların
beşinci – boynuma
sarılan qolların
altıncı – mənə Aid
olan ürəyin
yeddinci – səni görüşə gətirən
ayaqların
səkkizinci – hamıdan
fərqli vücudun
doqquzuncu – ləyaqətin,
dözümün
onuncu – bütün bunların –
bir sahibi,
bir ünvanı var...
adını çəkmədən
rəsmin qəhrəmanını
tanımaq olar.

◆◆◆

deyirsən ki, bu olanlar –
olacaqmış
bu boşalan – boşalmalı
bu dolanlar – dolacaqmış
bu bitənlər göyərməli
bu solanlar solacaqmış
bu gedənlər getməliymiş
bu qalanlar qalacaqmış
bu olanlar olacaqmış
deyirsən ki, hər şey göydən
gələn yazı
kim narazı – mən razı
fərq eləməz
yol beşikdən behiştədi
amma insan –
iz qoymalı – nişanədi...
bacarmırsa, ya buna heç
cəhd etmirsə –
demək hər şey
tənbəllərin uydurduğu
bəhanədi...

◆◆◆

heç bu qədər darıxdığım olmayıb
aman Allah, qəbir üçün, gor üçün
niyə axı bircəciyin demədin
sən başıma nə gələcək, görücüm

talehimi, qədərimi yazanın
günahımı nə saydığın de, bilim
heç olmasa son anımda anlayıb
bundan sonra adam kimi sevinim.

zamanımın olammadım adamı
həyat məni şişə çəkdi görk üçün
sellər yuyub aparıbdı odamı –
tay hara var həyətində görüküm.

◆◆◆

səsini səp dən kimi,
mən dinləyim təkbətək
səsə bürünmək üçün –
Allah məni göyə çək!

dodağım çat-çat olsun,
dərdim neçə qat olsun
düzlük mənə ad olsun –
məni düzəngahda ək!

əl gəzdirir vaxt telə,
arada bir vaxt elə
paxılıma üç belə –
özümə ver, bircə lək!

◆◆◆

acı çəkmək ilk qismətim,
əzəlim –
mənə düşən bilki budu gözəlim
hələlikdə öz başımdı, öz əlim –
qalan hər şey ötəridi, röyadı.
de kimim var mənim burdan
o yana,
yuxusundan dərdlərimə oyana
bir anıma mənim kimi
o yana –
onda billəm, yaşamalı
dünyadı.

◆◆◆

məndən uzaq qaçan yaxşı adamlar
qoyun öz tüstümdə özüm kor olum
özüm böyütdüyüm arzularıma –
özüm cəllad olum, özüm gor olum

mən adət etmişəm qəfil zərbəyə
hardan vurulmağım qorxulu deyil
ürəyim tuş gəlib hər cür həmləyə
bilmişəm həmişə qorxu bu deyil.

məndən uzaq qaçın, məni görməyin
təki könlünüzdə bir qəm az olsun
mənim qış havama siz bürünməyin –
sizə yaz yaraşır –
qismət yaz olsun!

◆◆◆

tuşlanıbdı axı niyə bizlərə
silah kimi yerin, göyün qəzəbi.
bulud kimi enib hopur üzlərə
bu dünyanın tükənməyən əzabı.

qaya çapır, dağ uçurur titrəyiş
sümükləri şaqqıldayıb torpağın
ayrılıqdan xəbər verir bu yeriş –
ömrü payız ünvanlıdı yarpağın

ziddiyyətlər toqquşduqca kəsişən
nöqtələrdə uğurdan çox kədər var
bir-biriylə həm barışan, küsüşən –
bizlərə də yazılmamış bir qədər var.

◆◆◆

heç dinclik tapa bilmirəm
ürəyim tikan üstədi
ümidim kəfənə idi –
onu da tikən istədi
həyat dörd divar-qəfəsdi
canım quruca nəfəsdi
olanım adi həvəsdi –
dizimi bükən istədi

köhnəlib yadım, yaddaşım
xiffətdi əzəl adaşım
tay sənə necə sataşım –
sinəmə çökən istədi.

◆◆◆

qarışıb fikir xəyalım
düşüb qalmışam ortada
Allahın qəzəbi tuta –
məni başdan daş yarada

hörüləm divar küncünə
çox da çəkməyəm diqqəti
seyr edəm gözün küncünə –
həmən o küncdən xilqəti.

bir az xəyalım durula
çəkiləm mən bərkə-boşa
bax onda görüb vurula –
sevdiyim həmin bu daşa.

◆◆◆

mən heç bir dərddən qaçmıram
göndər sevinsin ürəyim
dərd boxçasını açmıram-
nə var geyinsin ürəyim.

onsuz da yazım belədi
çoxum, həm azım belədi
mənim də nazım belədi –
dərdlə döyünsün ürəyim

azalan gözüm işığı
sozalan közün işığı
öldür sən özün aşığı –
sənə deyinsin ürəyim.

◆◆◆

sənin adınla bağlıdır artıq
ürək çırpıntım da, ruh çırpıntım da
biz ki, illər sonra axtarıb tapdıq –
bu dəli sevgini bir hıçıltıda.

dilim kösöv olub, dodağım çat-çat
qollarım hörülüb bir-birinə
dolmuş gözlərində dolanda həyat –
xəcalət çəkirəm dərdin yerinə

mən ömür payımı erkən xərclədim
baxmadım gün hardan çıxdı, ya batdı
görüşdük, vuruldum, sevgi bəxş etdin
indi yaşadığım həmin həyatdı!

◆◆◆

mən hamıya
başağrısı gətirirəm
nədənsə son zamanlar
sözüm acı,
özüm duszus
fikrim sərt
ona görə
mənə olan ümidləri
yavaş-yavaş
əvəz edir gümanlar
qalmır artıq ortalıqda
kiminləsə danışılmış
nə bir qayda
nə bir şərt!
yer daralır
mənim üçün
göy sıxılır...
bulud kimi
dolur ürək
hey sıxılır...
heç nə gəlmir üzərimə
hey çıxılır –
tükənirəm hamı üçün

yavaş-yavaş quruyuram...
inanmırsan
qoy and içim
ürəyimin canı üçün –
tək Boz Qurdam –
sən mələksən
o dərgahda –
üzü göyə uluyuram!
baş ağrısı
gətirdiyim hər kəs üçün...

◆◆◆

mən zaman adamı ola bilmirəm
içimdə min cürə fikir dolaşır
hara üz tuturam özüm cəhənnəm –
qeybətə, gileyə sözüm bulaşır.

ayaq üzəngidə, əl yalmandadı
qayğısız ötməyib bircə günüm də!
mən qabıq qoysam da – dil yalmanmadı
məmur qarşısında, para önündə

heyrətim dünyanın oyunlarına
həsədim Füzuli sevgisinədi
baxıb qurdlarına, qoyunlarına
görürəm kimlərin sevgisi nədi?

◆◆◆

bu dünyanın hər üzü
xeyir üzü, şər üzü...
əl dəyməmiş tər üzü –
üzümüzə açılıb
bəxtin yazı dəftəri,
qaralayıb səhvləri
iflasıyla, nəfləri-
boynumuzdan asılıb

ilk sətiri, son sözü
ocaq qoru, can közü
qismətimizin özü –
alnımıza yazılıb.

◆◆◆

dünyanın hansı üzündə
göz yaşı çiçək açmayıb...
arılar şehli çiçəyin –
ətrinə doğru üçmayıb...

dünyaın hansı üzündə
acıya şirin deyiblər...
bir şirinin xatirinə –
yüz dənə acı yeyiblər

dünyanın üzü çoxsaylı
gəzsən sirrin bilərsən
bildiklərinlə birlikdə –
çətin dünyaya gələrsən...

◆◆◆

atlanıbdı ürəyim,
çapır üzü sevgiyə...
neçə arzu-diləyim –
yatır üzü sevgiyə...

hey uçuram yuxumda
çin olur bu yuxum da!
cismim, hətta ruhum da –
batır düzü sevgiyə.

işıq dolu bir həyat
səndən gəlib bu barat!
Allah bir dərya yarat –
batır, bizi sevgiyə!

◆◆◆

gülsən – mən belə bilməzdim,
heç kəslə bölə bilməzdim
görmədən ölə bilməzdim –
ömrümə açılan çiçək!

gözün dünyaya pəncərə,
könlün cənnətlik mənzərə
ömrümü verdim mən sənə –
ömrümə açılan çiçək.

Tanrım açandan bu sirri
dəyişib qəlbimin yeri
sənsən mələklərdən biri –
ömrümə açılan çiçək!

◆◆◆

mən indi
ayrılıb insanlardan
yapışıb xəyallardan
bağrıma basıb
yarpaqlardan
xəzəl dilində danışıram
... ayrıldığım insanlar,
daldığım xəyallar
pıçıldaşdığım yarpaqlar
ömrümün itən –
bitən gözəl günüdü...
gözəl dilində danışıram.

ay indi tək qalanlar
qopub düşən günlərin
həsrətinə dalanlar
öyrənin xəzəl dilini
dünyanın gözəl dilini –
təklərin anladığı –
ilkin, əzəl dilini
danışaq
bu dildə!

◆◆◆

açıb sevgi kitabını
dayanmışam namaza
Allah, görüb sevgimi –
sən insaf ver, bu qıza

yaratdığın mən bəndə
düşüb sağalmaz dərdə
hərdən bir baxıb sən də
insaf göndər bu qıza!
ölüm, itim haqdı, haqq
sayma haqqımı nahaq
məni az yandırıb, yax –
qovuşdur tək bu qıza!

◆◆◆

daha «can» söyləmirsən
«Can» sözü acı dadır
görünür bu acılıq –
dilini acıladır

daha təbəssümün də
bir az ciddi, ötəri
mənə ayrı nə lazım –
bu ölümdən betəri.

«Can» sözü təbəssümə
qarışsa yağ-bal olar
qayıt, canım, özünə –
yoxsa cana qor dollar.

◆◆◆

mənim ömrüm əmanətdi,
bir cümləyə, əmrə bənddi
çoxları çox əməl etdi
sevgimdən döndərmək üçün

könlümdən qəmi atdıqca
acıya şirin qatdıqca
sevindim, şehə batdıqca –
gül dərib göndərmək üçün.

◆◆◆

sən mənə bir eşqin odunu qaytar
həsrətin, sevginin adını qaytar
qaytar, mən sevdiyim qadını qaytar –
aparma özünə, o sən deyilsən!

sən mənə bənd olma, tutaq ki, mən heç
görmək istəmirsən – gözünü yum keç!
kimi aparırsan?
bax onu bil, seç –
aparma özünlə – o sənin deyil!
baxıb gözlərimdən yağan yağışa
dilimdə alışan bu yalvarışa
nə olar, sən onu son kəs
bağışla –
aparma özünlə – o sənin
deyil!

◆◆◆

mən ki, artıq heç kiməm
nə mənası anmağın?
yanıb, sönmüş bir küləm –
gecdi külə yanmağın...

unudursan zülümlə
bu zülümü dilimlə...
oynayırsan ölümlə –
nə mənası danmağın...

nahaq könlün dolandı
gözündə su bulandı
bəlkə də xoş olardı –
məni keçmiş sanmağın!..

◆◆◆

daha yalvarmağa lüzum görmürəm
çünki söz urvatdan düşübdü artıq
axı mən həmişə sənə deyirəm –
dəryaca yaxınıq, damlaca yadıq...

bunu bilmək üçün ürək gərəkdi
sən isə ürəyi vermisən mənə
bu sevgi havadı, sudu, çörəkdi –
ona mən torpaq da deyirəm hələ.

baxıb buludlarda axtar sevgimi
qoyma acı çəksin, cöz yaşı töksün
özünlə göylərə apar sevgimi
görüb qarşısında mələklər çöksün

mən bəndə haqqımı umub Tanrıdan
dönəcəm büdrədib yıxana qədər
göndər hər nədirsə səni ağrıdan
çəkəcəm lap canım çıxana qədər!

◆◆◆

sən bir az dözüm ver, bir az da ümid
bir az da sevdalı ömür bəxş elə...
özün könlümdəsən, özünü unut –
adımı bir yerə yazıb nəqş elə...

havalı günlərim indi xatirəm
qayğılı günlərim başımdan aşır
çətin o günləri geri gətirəm
bunu düşündükcə səbrim lap daşır

əl boyda uşağam elə bil indi
nə yerim yer deyil, nə də göyüm göy
bircə ürəyim var – o da sənindi –
vermişəm, günahsa, günah üstə döy!

◆◆◆

könlümdəki od onu,
yandıracaq, yaxacaq
bu qız günəş axtarır –
dönüb mənə baxacaq!
ulduzların selində
mələklərin dilində
ürəyimin əlindən
göy üzünə çıxacaq

qürrələnir, öyünür
o qəlbimdi döyünür
nahaq yerə deyinir –
sevgim onu yıxacaq...

canı dildən sevir ki,
könlüm, mənə deyir ki,
tək qollarım deyil ki –
ruhum onu sıxacaq!

◆◆◆

ayın ilk günüdü, sübhün gözündə
hələ ki, şeh yatıb, günəş durmayıb
ayın ilk günündə – bu yer üzündə –
qapım döyülməyib, zəng vurulmayıb.

sanki ötən ayda, gündə qalmışam
dövrəmdə xatirə, canımda ağrı...
mən nələr vermişəm, nələr almışam –
açmaq asan deyil – sirri, paxırı.

qərib düşüncələr,
yorğun duyğular
ayın ilk günündə, ilk sübh çağında.
mənim həmdəmimdi –
soruşmaq olar –
bəs sənlə kim  qalıb –
indi yanında?

◆◆◆

hərdən
üzüquylu düşüb
ölümümü
ağlamaq istəyirəm –
nə vaxt gələcəyini
bilməsəm də...
hərdən
əllərimi uzadıb
Tanrımın
gözlərini
bağlamaq
istəyirəm –
mənim necə
ağladığımı
gördüyünü
bilsəm də...

◆◆◆

sənin üçün mən kiməm ki? –
bu sirri aça bilsəm,
qorxum olmaz ölümdən.
başqasına kimliyimin nə fərqi –
xoş arzular şirə çəkir könlümdən.

həyatımın ən birinci sualı
cavabına ömrümü də verirəm
düşünmədən-görəcəyim hər halı –
kipriyimlə od götürüb dərərəm.

mən yaşayan bu ömrün yazı yox
qışı gəlir payızının önündə
bircə söz de – biləcəyəm azı çox
de, mən kiməm – talehində, könlündə?

◆◆◆

gör ürək
məni hara çəkdi
nəyə qoşdu
hansı məqama gətirdi.

belə olacağını
bəlkə də
o özü də bilmirdi...

odur ki,
bu yerdə
bu sevgidə,
bu məqamda –
gözü görə-görə
özünü də itirdi
ürək...

sən tapa bilmədinsə
büna neynəsin fələk –
ay mələk!

# Ağla

gözlərin dolubdu qan çanağı tək,
məni ağlayırsan – üzümə ağla
sıxıb kirpiyini gül yarpağı tək
gözünün acısın gözümə ağlı...

ovudub içimdə üzüntüləri,
ruhumu sarsıdan giziltiləri
yuxulu, xəyali gəzintiləri –
sayıb bircə-bircə üzümə ağla.

demə daş parçası – quru ağacam
tapdanmış ümidəm, ya ehtiyacam
sənin ürəyinə, sevginə acam –
baxıb sən məndəki dözümə, ağla.

canımda can sənsən-canına qurban
qanımla düz gələn qanına qurban
mənimlə bir keçən anına qurban –
baş qoyub sinəmə, dizimə ağlı...

◆◆◆

unutdun məni
unutduğun
yuxu kimi...
unutdun məni
unutduqlarının
çoxu kimi...
unutdun ki-
yadında saxlamaqla
xatırlayıb ağlamaqla
xatirə danışmaqla
heç nəyə
sahib olmayacaqsan...
unutdun məni ki,
bir yolluq biləsən
nə qədər
bu yolu gedib-gələsən –
lap gözlərini də
kökündən siləsən –
heç nəyi geriyə qaytara
bilməyəcəksən –
bizim
nisgilimizdən
savayı.

# Neynirəm

dərdimin adı bəlli,
adsız dərdi neynirəm
dərddən olsam da dəli –
– dadsız dərdi neynirəm.

dərd yandırıb yaxmasa
gen çəkilib baxmasa
yeddi qata çıxmasa –
qatsız dərdi neynirəm.

qarda çiçək açmasa,
hər havada üçmasa
yaddaşlardan qaçmasa-
yadsız dərdi neynirəm.

## Dözə biləcəksənmi

bu bir dəli sevdadı
gülüş doğura bilər
ürəyi kündə-kündə-
kəsib yoğura bilər-
dözə biləcəksənmi?

bu bir ulu şamanlıq,
xoş gəlməyə də bilər
könlümüzə yamanlıq-
həsrətdən ancaq gələr –
– dözə biləcəksənmi?

bu bir dərvişlik, ya da
ruha, işığa dönmək
burda yanmaq-yaşamaq
yanmamaq isə – ölmək –
dözə biləcəksənmi?..

## İlahi

İlahi, sən bu eşqə
göz dağı göstərmə gəl!
sənlə mənim aramda –
bir ətəkdi, iki əl!

İlahi, bu anımda
ürəyimdə, qanımda
nolar, sən ol yanımda –
özün boyda qalx, dikəl!

İlahi, yalvarışdan
xəbərdarsan halımdan
yolumu sal barışdan –
bizə vurmasınlar pəl!

## Sinəndə

dar bir köynək geymisən,
nar sıxılır sinəndə
nəsə tilsim etmisən
bar sıxılır sinəndə

hər günüm il sayılıb
indi bəxtim ayılıb
gözlərimdən yayınıb –
qar sıxılır sinəndə

könlümü alıbda get,
sevgimi nur, gülab et!
gülüm, gəl etiraf et –
yar sıxılır sinəndə.

◆◆◆

yerdə yerim qalmayıb
göy üzü,aç qapını
yaman düyün salmışam –
dərdlərimin sapını

dərdlərim xəstə, qısır
ümidim əlin qısır
Allahım baxıb, susur –
üzə-üzə canımı...

səndən özgə gözümdə
ürəyimdjə, sözümdə
yox bir kimsə – özüm də
halal etdim qanımı.

## Ürəyim

ürəyim gör necə çırpınır, gülüm
ürəyim heç məndən fikir soruşmur
qalıb ortalıqda uzalı əlim –
küsüb ürəyimlə əlim görüşmür

biri pıçıldayır, o biri yazır
xəyalım uzanan yoldu eləcə
gedib ünvanına çatmayan, hazır
məktublar ortada qalıb beləcə.

ürək əldən küsüb, əl də ürəkdən
kiminlə danışım, kimə yazdırım
qoparıb sinəmdən, kəsib biləkdən –
onları söylə mən hardan asdırım!

◆◆◆

mən divarınküncündə
boynu büküb dayanmış
məktəbli tək durmuşam –
həsrətimin önündə...

mən özü-öz içində
dərd dənini üyüdən
xəyalımı qurmuşam –
həsrətimin önündə...

mən mənimi gəzirəm-
məni çox-çox böyüdən
yerimi də göy edən
ruhumu sünbül-sünbül
ürəyimdə göyərdən –
səndə, əzizim səndə –
sən gəl, aç qollarını
sevincdən mən kövrəlim –
utansım həsrətim də!

◆◆◆

taleh oyunudu, nə deyə billəm
harda başlayacaq, bitəcək harda
ömür bahasına qazandıqlarım
görəsən solacaq, itəcək harda?..
həsrətmi döyəcək qapımı bir gün
yoxsa qar yağacaq ömrümə bu an
gözündə yol izi, köksündə düyün –
mənmi olacağam boynunu buran.

fikirlər yüz yerdən didir içimi
danışmaq qəbahət, susmaqsa günah
necə götürüblər mənim ölçümü –
geydiyim kədərdi, çəkdiyimsə ah.

taleh oyunudu – birgə oynayaq
udub-uduzmaqdan keçibdi daha
sən qələm olarsan – mən də ki, varaq
yazaq arzuları çıxsın sabaha...

◆◆◆

aman Allah, su pərisi libasda
süzür biri qarşımızda qu kimi
ağlı çaşar inanın ki, Kim baxsa
içir onu baxışlarım su kimi...

qismətinə əl gəzdirib min qələm
baxışından qopammıram – dincələm
qorxuram ki, atəşindən incələm
dolaşdıram xəyalamı, fikrimi

gülüşü naz, oynamağı qandı-qan
him-cim ilə başa salır –
qan ki, qan...
bundan sonra çətin qalar
canda – can -
işdi qalsa –
axtardacaq həkimi...

◆◆◆

gülmək istəyirəmsə
mütləq ağlamalıyam
təbii ki, içimdə...

gülməkdən qaçıram mən-
bütün həyatım boyu –
elə bunun üçün də...

varlığımla-yoxluğum
ağlamaqla
gülməkdi.
mənimki, ömür deyil –
mənimki iməkləmək,
ya da elə beləcə –
baxa-baxa ölməkdi...

dəli axtarmayın siz
qarşınızda durmuşam –
təkcə könül ovumu –
ilk baxışla vurmuşam.

◆◆◆

öldür məni sevə-sevə
göz yaşın gözümə yağsın
öldür amma, gülə-gülə
gözlərin gözümə baxsın

dünyanın odun ələyim
canımı oda bələyim
özü od olan mələyim –
bir dönüb üzümə baxsın.

◆◆◆

gözümün həsrətini
vərəqlərə bükürəm
bircə Allah bilir ki,
sənsiz nələr çəkirəm –
mən indi...

ruhum çaşqın, yuvasız
solur dərman davasız
bəlkə də baş daşıyam –
unudulmuş, duasız –
mən indi...

sözüm dişsiz, kəsərsiz
günüm ötmür qəhərsiz
sevənlərin içində –
ən sonuncu qədərsiz –
mənəm indi...

◆◆◆

kimsəsizəm, kimsizəm
tək sənədi ümidim
sən verdiyin dərdləri –
səkə-çəkə çürüdüm

yolum, yönüm, yöndəmim
səndən gəlir gündəmim.
ünvan göstər göndərim –
ya da gəlim kiridim.

ağlım, cismim, ürəyim
havam, suyum, çörəyim
öləndə də gərəyim –
sənsən açar-kilidim.

◆◆◆

mənimlə oynama, insafın olsun
mən səndən dəliyəm, sən məndən dəli
qoy hər şey necə var elə də qalsın
məzəli oluruq, yoxsa , məzəli.

fikir karvanına çata bilmirəm,
əlim göydən çıxır, ayağım yerdən
yerimə qor dolub yata bilmirəm –
yatsam unudaram mən səni birdən...

könlümdə min ağrı, min acı təlaş,
axtardığım də sən, gördüyüm də sən...
ayla pıçıldaşdım, incidi günəş –
sən mənim dan yeri görüşdüyümsən.

◆◆◆

Allah, məni daş elə
tay dözümüm qalmadı
unutdu açıq-aşkar,
heç yadına salmadı –
o qız məni!

Allah, tüstüm içində
ütür od-ocaq yaman
sevgisinin gücüylə –
döndərib etdi şaman –
o qız məni...

◆◆◆

daha şəklinlə salamlaşmıram,
özün əlçatmazsan, ünüm də yetmir
elə bil dünyayala halallaşıram –
ilişib hardasa, günüm də getmir

ruhum çarmıxdadı, xəyalım yetim
kimsəsiz olmağın ağrısı zəhər
sənə qovuşmaqçün söylə nə edim
yaşaya bilmirəm axı bu təhər

yollar bağlanıbdı, telefonsa susub
ümid çırağının piltəsi yanır
çevrəmdə olanlar haqqımdan küsür
hamı yoxluğumu görür və danır

gəzib dolanıram havalılar tək
adınla açılan dilim göynəyir
ay Allah, sən məni dərgahına çək,
görüm o qız mənsiz yerdə neyləyir.

◆◆◆

bəsdi bu şəkil cızmağın
adımı səssiz yazmağın
ay zalım, çıxdı cızdağım –
dillən, bir vədə ver mənə

fikrim bulanır, qarışır
həsrətlə vusal yarışır
canım kibritsiz alışır –
eşq dolu badə ver mənə.

dilim tək adına dönür,
nə çəkirəm Allah görür
sevgimiz tər çiçək ömür –
bəzəmə, sadə ver mənə...

◆◆◆

əsəb üstə oxunan
nəğmə kimi titrəyəm
düşünmə ki, mən sənə –
sadəcə bir fitrəyəm
qanımın hər damlası,
qanının eynisidi
səni incidən könlün –
könlümün Leylisidi

nəfəsim nəfəsində
cilalanır, yaşayır
canımız iç-içədi –
bir-birini daşıyır.

kəsmək, sökmək, yandırmaq –
bu həsrətin işidi
sarıl mənə, görmürsən –
dodaqlarım üşüdü.

# Nənəm gəldi...

şirin-şirin danışır,
səs dodaqda gül açır...
qəfil hənir kəsilir
dəstəyi atıb- qaçır –
nənəm gəldi...

ruhum qalır narahat,
əlim qəlbimin üstə
mənə şirin bir həyat –
damarında var qəsd də-
nənəm gəldi...

dilimdə qırılmış söz,
qəzəb də var, qisas da va.
içimdə qovuran köz –
pıçıldayır bir az da –
nənəm gəldi...

yol arayıb soruram
düşünürəm min cür fənd
haldan salıb yoruram
baxıb gülür o əlbət –
nənəm gəldi...

... üz-üzəyik, göz-gözə
unutmuşuq Aləmi
bir gülmək gəldi bizə
kimsə çağırdı səni
nənən gəldi...

◆◆◆

mənim kədərimlə oynama, bəsdi
uşaq oynatmağın zamanı keçdi
qəfil yağış yağdı, ruzigar əsdi –
söndü ümidlərim- gümanım keçdi.

xəyal gəmisində üzdüm, üzüldüm
həsrət dalğaları göynətdi məni
nədənsə həmişə yanlış çözüldüm
o qız həsrətinə öyrətdi məni.

◆◆◆

heyif ki, ləçəklərdə
şehin izi çox qalmır
əsdikcə, çiçəklərdə –
mehin izi çox qalmır

heyif ki, əllərimin
yaddaşı qabarlanıb
ötüşən illərimin –
təqvimi hamarlanıb...

heyif ki, gözlərimin
aynasına tor gəlir
qafiyəbazlıq deyil –
fikir çəkir – gor gəlir

yaxşı ki, sənsizliyim
yer kimi kürə deyil
görərdin ki, adıma –
səni kim nə cür deyir.

... heyif ki, sənsizəm mən,
yaxşı ki, dərdim sənsən
mən sənsizliyə vətən –
sən ruhuma vətənsən...

# Qalıb

gəl, dərdini aldığım
gəl, dərdim sənsiz qalıb
zirvəsinə qalxdığım –
– dumansız, çənsiz qalıb.

əl qaş üstə, göz yolda
ləngimə bu düz yolda
nəsə göndər – tez ol da –
dəyirman dənsiz qalıb

həsrət məni çərlətdi
yay bükdü, qış tərlətdi
bağlamısan sərhəddi –
canım vətənsiz qalıb

gəl, qadasın aldığım
gəl, sevindir sən məni
gəl nəfəsinlə bələ –
həsrətinin vətənin.

◆◆◆

sapı
üzülmüş ürəyimlə
söykənib pəncərəyə
nəşriyyatın
altıncı mərtəbəsindən
baxıram
Yasamal
qəbristanlığındakı
mənzərəyə...

◆◆◆

bir ümid də üzülür,
budağından yarpaq tək
şırımla sən – həsrəti –
səp sinəmə torpaq tək...

həyatımın dadını
unutdurma adını
ay arzumun qadını –
sıx sən məni qarmaq tək
çox hissə uymamışdım,
çoxuna qıymamışdım
heç sevinc duymamışdım –
vallah səni tapmaq tək...

◆◆◆

hara baxıramsa göz səni gəzir,
özünü unudub, döz, səni gəzir...
alışan dilimin tüstüsü işıq –
boyuna biçilmiş söz səni gəzir

günahlar içində günahkar ömrü
günahdan günaha daşıyıram mən
sənsiz anlarımı günah sayıram –
gör neçə günahlar yaşayıram mən.

ürək çırpıntımı sözə çevirib
yalvarışmı edim, gileymi edim
ruhu yer yandıran közə çevirib –
dünyanı özümdən gileyli edim?

bilmirəm çaşmışam, ya göz torlanıb
ruhuma əl uzat, əlini sıxım.
həsrətdən həyatım tamam korlanıb
bir söz de, ümid ver – bir yana çıxım.

◆◆◆

hələ ki, açılan səhər
heç nə vəd etmir...
solmuş günahlarımla,
başımı
qatmaq istəyirəm...
həsrətdən
daddığım zəhər
yapışıb damağıma
nə qədər çalışıram
çəkilib getmir –
məcbur olub,
onu da udmaq
istəyirəm –
bu şəhərin,
bu səhərin
havası kimi...

◆◆◆

bu qədər
canım
sıxılmazdı əvvəllər –
bilməzdim ki,
nə canım var,
nə dərdim...

indi
canım
sıxıldıqca
düşünürəm ki,
canım olmayan yerə
dərdimi
tərəddüdsüz
götürüb gedərdim –
bir az rahatlanmaq
üçün...

◆◆◆

ürəyim çiçəkləyib
ayaqlarımsa getmir
cənnətdən qovulmuşam –
cəhənnəm qəbul etmir –
baxıb ağlama məni...

çiçəklərim quruyub
yarpaqlarım tökülür
ruhum uçub canımdan
cismim ağa bükülür –
yoldan saxlama məni...

taleh güzəşt eləmir,
boynunu buranlara...
sən də sil gözlərini
namaza duranlara –
qoşul, ağlama məni...

◆◆◆

sən bu qədər günahımın
bircə kəlmə səvabın de...
düz bir ömür dilədiyim –
istəyimin cavabın de.

dərd yanında üzü qara
çəkildim gözümdən dara
gəl sən yozma ora, bura –
«hə» sözümün davamın de.

dağdan daş tək uçurlanıb
könlümdə qəm puçurlanır
mən bəndən öz suçun qanıb –
sən Tanrım, son havamı de!

◆◆◆

addım atdım – dərd, qəm çıxdı siftəmə
könül verdim – mən könlümü sitəmə
yavaş-yavaş tor bürünür didəmə –
yar görməyən gözlərim qoy kor qalsın...

hamı gəzir doğmasını, kəsini
alıb seçir gərəyini, bəsini
hisslərimə məlhəm olan səsini,
eşitməyən qulaqlarım kar qalsın.

bənzədəcək kim doğmaya, kim yada
kim salacaq xatırlayıb, kim yada...
mən gedəndə istəmirə dünyada –
söyüləcək bəd nişanlı gor qalsın...

## Adil Şirinə

bu dünya yuxuludu,
bilmirəm varam, yoxam...
dişlərim sıxılıdı –
bilmir acam, ya toxam...

bir tağlıdı körpüsü
çat veribdi hörgüsü
adam boğur bürküsü –
əlində qalıb yaxam...

hirsim başıma vurub
üstümə enir qürub
Adil Şirin bərk durub –
Qoymur özümü boğam...

◆◆◆

mən sənə ömrümü-günümü verdim,
nə idi bu ömür, ya bu gün sənə?!
verdiyim ömürdən axı, nə gördün –
de niyə susursan, danış, dinsənə.

gecə zülmətini səpir, ələyir
qaçan da, qovan da imdad diləyir
arxanca bir dəli ürək mələyir
bircə yol üzümə dönüb gülsənə

ağrını, acını dərib üzürəm
bəxt verən hər dərdə durub dözürəm
baxma ki, Məcnun tək qərib gəzirəm –
qərib ünvanımı tapıb dönsənə.

haqqa əlim açıq, torpağa yolum
dön sevgi gününə – torpağın olum
üşüyür dodağım, quruyur qolum
qayıt qovuş mənə, qovuş sən – sənə!

◆◆◆

təsəvvür elə
kiprik ucunda yaş
diqqətlə bax –
qopmağa başlayır
yavaş-yavaş...
barmağının ucuyla
silməkdən çəkinirsən
yanağın aşağı
diyirlənir
balaca bir «daş»...
göynəyir izi...
nə sərt imiş
həsrətin üzü
görürsənmi,
ayrılıqda
ötən anlar
göz yaşına
tutub bizi-
ay insafsız...

◆◆◆

mən heç kiməm sənin üçün
haqqın da var – bu doğru..
məni həyat-ürəyin
çəkir özünə doğru
koram, şiləm – hər nəyəm
sənin üçün təşnəyəm
vallah göydən düşməyəm –
nə qatiləm, nə oğru!..

nə din, nə sus – bax belə
canı şişə tax belə
istəyimi dağ elə –
vüsal olsun axırı...

# Qalmışam

hardan gəlmişəm, hara gedirəm
özüm öz yerimdə dözüb qalmışam
yada da düşmürəm – üsyan da etsəm –
canımdan aşkarca bezib qalmışam

yuxu həsrətlisi, xəyal dəlisi
kükrəyən sularda batır gəmisi
de kimə gərəkdi mənim kimisi –
sonuncu teli də üzüb qalmışam...

əlim sözə baxmır, dodağım əsir
içimi küt ağrı doğrayır, kəsir
Əbülfət, de ruhun hara tələsir –
vüsal badəsini süzüb qalmışam.

## Bütövlüyün qələbəsi

*Ədəbiyyatın bilicisi, el-obamızın*
*ağsaqqalı, dəyərli ziyalı, qayğıkeşim*
*və əzizim Nəbi Muxtarov üçün*

Atdığın hər addım, dediyin hər söz
Bütöv olmağına danılmaz sübut.
Haqqını görməyi bacarmayan göz
Qaralıb şam kimi, eləyir süqut!..

Gündüzlə gecənin sərhəddin pozub
Dincliyi unudub, yuxunu qovdun.
Bütün təklifləri səbirlə yozub –
Dürüst qərarlara möhrünü vurdun.

Əkilən ağacda, çəkilən yolda
Tikilən binada sözün dayaqdı.
Sevincli, əzablı – hər cürə halda
Varlığın ümiddi, işin mayaqdı!

Sadə adamların duası sənlə
Xəbisin, namərdin peşəsi bəlli...
Zirvələr sevilir dumanla, çənlə
Bu bir həqiqətdi, deyil təsəlli!

Ən ağır məqamda, ən sərt zamanda
İrəli çıxaraq çəkdin düz xətti.
El sənə güvəndi görüb yanında –
Sənin öz bəxtindi-bu elin bəxti!

İllər varlığından süzülüb keçib
Arxada əl çatmaz bir tarix qalıb.
Səni iqtidar da, elin də seçib
Deməli haqlılar qələbə çalıb!

◆◆◆

O daşa bax
sinəsini güllə deşib.
o ağacı
mərmi yıxıb
yaralı daş səngərdədi
şəhid ağac
öz köksünün kölgəsində

yaralı daş...
şəhid ağac...
bizdən kişi
çıxıb, qardaş...
Bəlkə biz də
yola çıxaq
bu qorxunu
yıxaq qardaş!
Qayğılı çəkdiyim,
dərdli çəkdiyim
Bu boyda Bakıda
dərddi çəkdiyim.
Mənim azadlıq da
şərti çəkdiyim –
cəzanın adını
çəkənlər bilər.

dörd divar
arasında
ikimiz –
sözümüz,
səsimiz,
nəfəsimiz...

qarışıb
bir-birinə
Amma
bu dörd divar
arxasında
Qalan həyat
səssiz,
sözsüz,
nəfəssiz –
qəfəsimiz...
Gülməyin
bu şeirə siz –
Beləcə
anlaşılmaz
- bir sevgi
yaşayırıq biz!

◆◆◆

Ürək
yumruq boyda
daş tək
Asılıb sinəmdən...
Həyatım cəhənnəmə döndü –
ürəyimin
gərəksiz olduğunu
biləndən...

◆◆◆

halımı soruşursan,
halım sənin əlində.
dönüb bir küt xncərə,
qalım, sənin əlində...

halımı kəsib, doğra
dincəl bir az və sonra
qəmimi də bu donda
alım, sənin əlindən...

əriyir gözün yağı,
itir qarası, ağı...
yaxşı bilirsən axı –
canım sənin əlində.

◆◆◆

göynət ürəyimi, qopart qaysağın
göndər şirin paydı-dərdin qaymağın
onsuz da keçibdi məni duymağın –
mən elə beləcə ölüb gedəcəm

çəkinmə heç nədən, bəxtə min şükür
yazı haqdan gəlir – vaxt özü bükür
mənim budaqlarım tez çiçək tökür –
mən elə beləcə ölüb gedəcəm

zaman yəhərlidi – mən isə naşı
min sual göz deşir hər addım başı
indidən görürəm boranlı qışı –
mən elə beləcə ölüb gedəcəm

kövrəlib kipriyə damcılar düzmə
möhkəm ol, bərk dayan – özünü üzmə
bu mənim bəxtimdi, heç dodaq büzmə –
mən elə beləcə sona yetəcəm.

◆◆◆

çətindi mənimlə dərd ortaqlığı
çətindi, amma ki, bəxtə bu düşüb
mənim sevdiyimin halı pərişan –
məni sevməyənlər baxıb, gülüşüb

bəxtimə yazılı qış düşüb ancaq,
fəsil dəyişməsi gəlmir yadıma.
sevdiyimə görə iş düşüb ancaq –
cəza qanunuyla mənim adıma

həyat dəftərində son vərəq kimi
bir nöqtə qoymağa ağ yer qalmayıb
mən indi qopacam son yarpaq kimi
sən də düşünərsən, yəqin olmayıb.

çətindi mənimlə danışıb, gülmək
ancaq dərd tökülür, dərd yağır məndən.
əvvəldən deyəydim bus özu gərək –
incimə, dünyaya qəm baxır məndən.

◆◆◆

əsir talehimdə payız küləyi
hər gün həsrətinlə mən baş-başayam
üzülür canımdan Məcnun ürəyim –
buna çətin dözüb, çətin yaşaram.

anasın ağladıb yuxusuzluğun
gecəni gündüzü tək ölçüb-biçirəm
sənli günlərimi zəm-zəm suyu tək
vallah damcı-damcı bölüb içirəm.

artıq nə deyəcəm, əslində heç nə
söz aciz qalıbdı sevgi önündə
məni dilbilməz tək qınayıb gülmə –
sən sirr saxlayırsan axı könlündə.

# Sevgi qəm deyil

könlümün odunu söndürmə belə,
onsuz da ölürəm – öldürmə belə
dünyanı üstünə güldürmə belə ,
sevgi qəm deyil ki, qaçırsan ondan.

açılan səhərə bir çınqı od at,
yuxunu dan üzü su üstən adlat
yığılsın həsrətin, yığılsın qat-qat –
sevgi qəm deyil ki, qaçırsan ondan.

üzülən ümiddi-çiçək vədəsi
döyür qapısını payız hədəsi...
ay Tanrı mələyi, ay yer bəndəsi –
bu segi nədir ki, qaçırsan ondan.

mənim ruhum uçub, cismim ovulub
bir xırman yeriydim, xırman sovulub
ay Leyli, səninçün Məcnun doğulub –
tanıya – tanıya qaçırsan ondan.

◆◆◆

səsinə zəng etmişdim,
səsimi tanımadı.
səsin buz kimi- soyuq
səsinin odu hanı?

dərdə sinə gərmisən
de, bəlkə səngərmisən?..
bir şəkil göndərmisən
bəs bunun adı hanı?

məndə bir mən boy atdı
xatirələr oyatdı
ömrüm-günüm boyatdı –
soruşma, dadı hanı?

## Qısqanıram

dodağım dodağınçün
əlim əlinçün əsir...
mənə elə gəlir ki,
bu meh telinçün əsir –
qısqanıram...

xəyalım uzaqlarda,
gözüm şəklində qalır
sənsiz ötən anlarım,
səni əlimdən alır –
qısqanıram...

yuxumun şah dammarı
üzülür, çiliklənir...
yanımca həsrət gəzir
kölgəmdə günlüklənir –
qısqanıram...

talehimə, qədərə
ağız açdım min kərə...
səni hətta əzizim –
sən sevdiyin kədərə
qısqanıram...

◆◆◆

açıram gözümü-baxışımdadı
yumuram, ruhumla baş-başa qalır
ürəyim dən tutmuş sevgi zəmisi,
həsrətin əliylə hey başaqlanır.

gecə bir addadı, gündüz min donda,
xəyal sərhəd bilmir, yasaq tanımır
mən bu dəli eşqi anladım onda –
o nə təsdiq olmur, nə də danılmır.

çəkir öz yükünü-dizində təpər
yanır ayağından telinə kimi
göylərə əl açıb hər axşam, səhər –
dözüm istəyirəm ölənə kimi.

gözümün işığı, ruhumun şahı
bu azad dünyamda taxt-tac qurubdu
məni məndən alıb unudan ahu –
əyilən günəşin sonu qurubdu.

◆◆◆

gülüm, olan olubdu
gülüm, keçən-keçibdi
mənim şair ürəyim,
səni həmdən seçibdi.

demə yaş o yaş deyil,
düzdü oğul-uşaq var...
inan bizim sevgidən –
məyus olmaz uşaqlar...

demə, döz, dayan görək
demə, günah iş tutduq
de ki,  çartlayır ürək –
nəyi harda unutduq...

demə qərarsızsan sən,
demə fikrin qarışıq
de, mənsiz yarsızsan sən –
həsrətdə də var işıq...

◆◆◆

üzülmüşəm içimdən
kiprikdən qopan yaş tək...
atılmışam uzağa
əl boyda qara daş tək...

duyğulara sığınmaq
gücüm tükənib tamam...
yüyürdükcə yıxılmaq –
istəmirəm, mən atam...

səsim içimdə ölür,
sözüm dilin ucunda...
mənə həsrətin gülür
həsrət hələ hücumda...

üzüldükcə nazilən
nazildikcə dözən mən
sən Leyli tək naz edən –
Məcnun kimi gəzən mən...

# Gəl

gəl çıxıb burdan gedək
gedək ün çatmaz yerə...
sevgiyə səcdə edək
Allah nə verə-verə...

gəl, hörək əli ələ
körpüləşsin cismimiz
çəkilsin bundan belə
qoşalışmış ismimiz.

gəl, nağıldan həyata
dönək ümid şamı tək...
yaşayaq bu sevgini –
qocaltmayaq hamı tək...

◆◆◆

mən nə deyim, heç bilmirəm özüm də
dərdin, qəmin içində lap itimişəm
dünya sanki cəhənnəmdi gözümdə
yolun üstə sual kimi bitmişəm.

ağlım-hissim bir-biriylə güləşib,
ağır olub zamanişi, gün işi
talehimə doğan sən tək günəşi –
görməmişəm, gözü bağlı ötmüşəm.

misraları qırıq-qırıq kəsilən
dərd şairi, pıçıltınam, səsinəm,
xoş anımla ay ürəyim, bəsinəm –
zülümləri mən özümə etmişəm.

◆◆◆

məni qınayanlar
çox
fərq etməz
haqlı-haqsız...
onsuz da dəyirmanın
işi başından aşır
çaxçaxsız...
özümü də bezdirib
fikirlərmin
pərakəndəliyi...
baxmayın mənə
dodaq büzüb,
göz süzdürüb
Allahın nə günahı
mən bacarmıram
bəndəliyi
həyatımın
bir adı var:
solmuş
şair gündəliyi!

◆◆◆

eşitsəm inanmazdım
oxusam şübhə edərdim
yuxuma da girməzdi
ağlıma da gəlməzdi
heç Kim
sübut da edə bilməzdi –
bu yaşda
ağlım başımda
ürəyim yerində –
yaşaya biləcəyimi!
amma indi
eşidib inanın
oxuyub şübhə etməyin
yuxunuza çağırın
ağlınıza gətirin
şübhəyə yer qalmasın
bu yaşda
nə ağlım başdadı
nə də ürəyim yerində.
yaşayıram ancaq
sadəcə dəli-divanə
günündə!..
Məcnunun da

dodağı qaçardı –
bu halımın önündə...

yaşamaq
cəhənnəmin
sonu
əl çatanda,
ün yetəndə ...
ruhumu
alıb apardın
hiss etmədinmi
nəsə ayrılıb qaldı
sən gedəndə
mənimlə
sakini
olacağım –
cəhənnəmdə –
ruhunu axtarma...

# Deyil

baxdım, çıxıb gedirəm
dünya ta mənlik deyil
ilğım məni aldadıb –
səhra çəmənlik deyil

günəş qüruba dönür
əriyir, şam tək sönür
ürəyim, ruhum ölür –
günahı sənlik deyil.

qəmdi hər gələn səhər,
sevinci nisgil, qəhər...
mən bal bildiyim zəhər –
urfalıq, dənlik deyil.

bəxtdi – ağ, qara, ya boz...
oxu, cır at, ya da poz!
sevgimi min yerə yoz –
çox çətin tənlik deyil...

◆◆◆

bəzən
mənə elə gəlir ki,
dünyada ən sonuncu
ipdən asılmışam
daha nə ip olacaq,
nə də dünya,
bu sondu guya...
gülməli də olsa
elə bilirəm ki,
sonuncu qara kağız
ya vida
nəğməsi kimi
göz yaşları ilə
yazılmışam.
Tanrım
bəxtimi bildiyindən,
oturub
günümü ağlayıb,
və sonuncu ipi
mənim üçün saxlayıb.
dediklərimə
təbəssümlə yanaşıb
düşünməyin ki,
ağlım laxlayıb
yerindən –
sadəcə hərdən
belə şeylər
ağlıma gəlir...

◆◆◆

heç kim
günahsız deyil,
hətta mələklər də...
onların günahların,
göy üzü pərdələyir.

heç nə mənasız deyil,
daşlar da,
ağaclar da...
yağışlar, küləklər də
hamısının da
öz işi var –
ürəklərdə...
gör insan özünə
nələri dərd edir
Allahım,
günahlarım
həmişə pərt edir
məni –
sənin qarşında!
elə bu səbəbdən
ağrıyır
hər gün
ürəyim də,
başım da...

## Yanır

bu cəhənnəm odunda
cənnətlik bəndə yanır...
mən cəhənnəm sakini –
cənnətlik məndə yanır.

qoy odundan köz dərim
için-için közərim –
ümid şamım gözlərin
o da ki, səndə yanır.

tilsim, dua, daha nə
hamısı söz, bəhanə.
nədi eşqdən baha, nə? –
o da bu fəndə yanır.

mən qərq olan bir gəmi
düşün bir an bu dəmi
arzularımın cəmi –
ağaran dəndə yanır...

◆◆◆

əslində
hər şey sondu-
və sondan
başlayır əvvəl...
nəticə –
ilk adamın əksidi
hətta
belə də
demək olar –
məqsədin çəkisidi,
sondan əvvələ
uzanan yol...
sanki seyr edirsən
bircə unudursan ki,
hər zaman
özündən-özünə
gözüyumulu
bütün
istiqamtlərdən
yol gedirsən...

◆◆◆

əlimi uzadıram
dəstəyə doğru
əlimlə
dəstəyin
arasında
bu anda
nələr yaşandığını
bilmək istəyirsən
dayanıb kənarda –
üz-gözümdən oxu...
sənin şərtlərin
mənim vədlərim
qarışıb bir-birinə
içimdə
təlaş və qorxu
yaradıb...
bu səhər yenə
səsinin həsrəti
gör qanımı
necə qaraldıb
ay insafsız...

◆◆◆

əslində mənim
nəsə ummaq haqqım
çoxdan bitibdi...
yoxluğum aşkar görünür
səsim kimi,
izim də
çoxdan itibdi...

əslində mənim
nasə yazmağım –
keçmişdən qayıtmağım
kimi bir şeydi.

xatirələr köhnəldikcə
şirin olur –
deyilmi!..

əslində
varlığımla yoxluğum
vecinə deyilsə çoxluğun,
sən də onların arasında
onda nəyə gərəkdi
ummağım, yazmağım
və bütün bunları da
sənin bilməyin...
əslində qalmağım
daha gözəl olardı
yoxların sırasında.

◆◆◆

iş otağımın pəncərəsi
gözünü zilləyib
qəbristanlığa
hər dəfə
pəncərəyə söykənəndə
unutmaq istəyirəm
heç olmasa
bir anlığa
dünyanın bütün
pisliklərini...
iş otağımın
pəncərəsi
bəxtindən incik
mən isə əksinə
ruhların dolaşdığı
ünvanla üz-üzə qalanda
özüm də ruh olanda
sanki dinclik tapıram
pəncərəm
qəbristanlığa
açılır,
ürəyim təkcə sənə...
bütün pisliklərdən
qorunmağa
çalışan
dinclik tapmaq istəyirsənsə
mesajla
ruhunu göndər mənə...

◆◆◆

daha nə deyə billəm
nə var hamısın dedim...
qaldı qara daş atmaq –
durat, mən çıxım gedim

mənsiz yaşamaq nə xoş
mənsiz hər şey gözəldi
mənsizlik ümid kimi –
həyatında közərdi...
sanki olub-keçənlər,
biz aldanan yuxuymuş...
sanki nə and içənlər,
nə bu sevgi yox imiş...

daha təlaş keçirmə,
boşalmış könlünə bax
sən məni salamat bil,
mən də səni hər an sağ!

xatirələr içində
bir şam əriyir indi...
onu bir Allah görür,
bir də o bilir kimdi...

◆◆◆

sözümün sapından tut,
dola məni boynuna
bəlkə sürüşüb ordan
girə bildim qoynuna.

xəyalına dalmışam,
gözündən od almışam
hələ də mat qalmışam –
bu həsrət oyununa...

## Qoşma

baş-başayam tənhalıqla-təkliklə
çəkdiklərim bir ömürlük dərd deyil.
insafdımı o mənə dərd çəkdirə –
naz etməyi bunca axı şərt deyil.

günahlarım dağdan ağır, en qədər
dərdlərimi kim geyinsə gen gələr
yaman artıb qulp qoyanlar-yengələr
dedikləri bir-birinə bənd deyil...

taleyimə qol açmışam – qollarım
yol gözləyir, çox uzandı yolların...
sənsizlikdən bu dəyişən hallarım
ürəyimə yol tapmaqçün fənd deyil.

◆◆◆

mən keçib gəldiyim bu yol
bənzəmir özgə bir yola
əllərim tutar qolunu
sarılsa özgə bir qola.

hər şeyin yalan vaxtında
dünyanın talan vaxtında
gülüm, tək qalan vaxtında
boylanıram sağa-sola...

gözümdən başlayır bir yol,
gözümdə qışlayır bir yol
məni hey xışlayır bir yol –
sən tək yarım ola-ola...

hər gün eşqi öyməyimi,
duyub, oxşa göynəyimi
qəmdən biçib köynəyimi –
ağla məni bala-bala.

◆◆◆

uzun çəkdi tapmacalar, nağıllar
xəbərin var – bizə necə baxırlar – ?
sevgimizi günah sayan paxıllar –
gizli tilsim, aşkar dua yazırlar.

sən fikrində çox qayğılar çəkirsən
öz-özünü haldan-hala bükürsən
niyə ancaq ümidsizlik əkirsən –
görmürsən ki, izimizi qazırlar?..

ötüb gedir günüm, ayım boş hədər
ömrü hədər saymamışdım bu qədər
sənsizliyim dil bilməyən qəm-kədər
məni onlar ürəyimdə asırlar!

◆◆◆

bu səhər
dan yeri
sökülməzdən öncə
yatılı ikən səhər
əlimi uzatdım dəstəyə
yuxuna şirinlik qatım deyə
bu səhər
yatılı ikən şəhər
güzgüdə baxıb gördüm
qan çanağıdı gözlərim,
və sənə
qəribə gəlsə də...
pəncərəmdən
boylanıram pəncərənə
gözlərimin
işığı
düşür gözünə
səni yuxudan oyadıram.

# Nə vaxt gəlim

ürəyimin para vaxtı, tən vaxtı
sərçələrin dənlədiyi dən vaxtı
oyanmışam, özün söylə sən, vaxtı –
nə vaxt gəlim əllərindən öpməyə.

pərən düşüb xəyalımın sırası
ovcumdadı gözlərimin qorası
bir görüş ver, bu həsrəti qırası
nə vaxt gəlim tellərini öpməyə.

həsrətimə etinasız gülürsən
çıxacaqsan bil, qarşıma bir gün sən
bütünlüklə şeh bələnmiş bir gülsən –
nə vaxt gəlim güllərindən öpməyə.

## Bu günə şükür

bir zaman kəsiyi də
artıq döndü keçmişə,
biz hələ də çırpınır
hələ də yol tapmırıq
mən nə deyə bilərəm,
bizə bəxti seçmişə
onu ki, biz yoğurmur,
onu ki, biz yapmırıq –
bu Tanrı yazısıdı –
şükür, bu günə şükür!!

qazancımız üst-üstə
qazancımız bərəkət
min illərə bəs edər –
bu dəlisov məhəbbət
bizə dözüm gərəkdi,
bir də qəti hərəkət!
hər günün axırında
pıçıldayıram xəlvət –
bu Tanrı yazısıdı,
şükür, bu günə şükür!
mən təkcə öz adımdan
əl açmıram göylərə

hər duamda sən varsan,
ey mənim olan ürək!
bu həyatın dadından
qismət düşsün ellərə –
sən yaman inadkarsan –
inaddan əl çək görək
bu Tanrı yazısıdı,
şükür, bu günə şükür!

mən hələ də yüz dərdi
bir sapa düzmək üçün
yol arayıb gəzirəm
gecəm-gündüzüm itib
ruhumun can ortağı
tər gülü üzmək üçün
allahdan kömək uman
dua dilimdə bitib
bu Tanrı yazısıdı,
şükür, bu günə şükür!

◆◆◆

məndən sənə qədərki yol
səndən
mənə qədərki yoldan
fərqlənir.
çünki
mən səni
bütün sevgilərimlə yanaşı
həm də
şair kimi sevirəm
odur ki,
bəzən
tanıdığım, bildiyim
şair sevgiləri də
vərəqlənir
yaddaşımda.
və daha çox da fırlanır
Müşfiqin
«yenə o bağ olaydı»
misraları başımda.
odur ki,
incimə sən Allah
dediklərim də
elə bir şairlikdi
vallah!

◆◆◆

özümü anladıqca
sənə yaxınlaşıram
aradakı məsafə
azalır günü-gündən
xəyallara tapınıb
tamam nağıllaşıram –
çıxıram bəndəlikdən...
yapışıram dörd əlli
məni sevdiyin dindən
yapışıram ürəklə
ayıra bilməz məni –
bu sevgidən fələkdə!

◆◆◆

mən elə bilirdim ki,
hamı kimi
mən də
bir dəfə öləcəm
və bu ölümümlə də
həsrətinə güləcəm
gülə-gülə ayrıldığım
həsrətimin
yuxularına –
hərdən elə
yuxu kimi də gələcəm...

mən elə bilirdim
ölüm bir andı
sən demə
ruhuyla
sevənlər üçün
ölüm yalandı...
yalandı...
dörd divar arasında
ruhumdan
tonqal qalandı...
çınqısı

səndən düşmüşdü –
gözündən işıq
içmişdi
dodağından qopmuşdu
qısası
görüşündən
dönmüşdü
təəssüf ki, bunu
ikimizdən savayı
kimsə bilməyəcək...
hətta
istəyənlərimiz belə
bilib sevinməyəcək...
bizim
öz dünyamız var
açarı səndə
kilidi məndə
və yaxud da
tərsinə
bir də
mən çoxdan hazıram
sevə-sevə ölmək
hər gün ruha dönmək –
arzulu olan
bu məhəbbət dərsinə!

◆◆◆

sən cənnətsən –
mən cənnətə can atan
üzmə məni,
ay könlümü qanadan
taleyləri biz seçmirik,
bilirsən
səni mənə
qismət yazıb Yaradan

nəm çəkirəm baxışımla buluddan
göy söykənib əyilərək çiynimə
məhəbbəti, sən ay məni unudan
özün ölçdün, özün biçdin əynimə.

◆◆◆

işığı görünməyən –
gözüm kor olsun mənim
yanında yerim yoxdu –
yerim gor olsun mənim.

nə doğmayam, nə yadam
əzab dolu həyatam
doğmalarsız tək adam
gözüm kor olsun mənim.
keçdikcə an-qərinə
qəm kök atır dərinə
sarmaşsın bir-birinə
ruhum tor olsun mənim.

◆◆◆

qayıdın yanıma, dönün çevrəmə
məndən uzaq düşən dostlar,
tanışlar
dönüb qonaq olun
bu qəm süfrəmə
axı tək qalanı çoxluq bağışlar
bağışlar, yəqin ki, məni bağışlar.

yurdsuz-yuvasızam günüm göy əski
qapım var, nə də ki, qapım döyəsi
içim söz doludu – sizə deyəsi –
amma imkan vermir isti yağışlar.

qəzəbə tuş gəldim, aha büküldüm
özüm ucuz ikən, baha büküldüm
daha sındırıldım, daha büküldüm
könlümə iz saldı, sonsuz naxışlar.
taleyim yolumda çox tikan əkdi,
demədi Əbülfət meydanda təkdi
sizə üz tutmağım sonuncu cəhdi
bir də apardığım qəmli baxış var.

## Sevgimiz üçün

bu gün səninlə birgə
qəmə qarşı çıxmışdım
sənli-mənli dözümü –
bir nöqtəyə yığmışdım –
sevgimiz üçün...

bu gün əslində hər şey –
ilk idi, əzəl idi...
bizi bürüyən zaman –
bəmbəyaz gözəl idi –
sevgimiz üçün...

bu gün həsrət sözün də
unutmuşdum büs-bütün
inan, mənim gözümdə
heç nə idi Büsutun –
sevgimiz üçün...

bu gün sən və mən, bir də
bir olan ürəyimiz...
üz tutmuşduq Allaha –
tək odur köməyimiz –
sevgimiz üçün...

◆◆◆

mənim içimdəki qəm qocalıbdır
saç-saqqal ağardıb, il yola verib
sevincli günlərim barmaq hesabı –
kədərli günlərim qol-qola verib.

üzümə gün doğub isinməmişəm
qara qəm pərdəsi kəsib aranı
fikrimdə dərələr, dağlar asmışam
amma ayaqlarım gəzib aranı.

heyrət ediləsi bir taleyim var,
onu bilə-bilə mən yaşayıram
özümlə bərabər bu talehi də –
son günə, son yerə mən daşıyıram.

mənim könlümdəki mənim həyatım
ağrıma – acıma şərikdi, təndi
həsrətin önündə necə dayanım
o böyük sevgimə – böyük Vətəndi!

# Qayıda bilsəydim

qayıda bilsəydim nə idi dərdim
qayıdıb gedərdim dünənki günə
qayıdıb yolunun üstə bitərdim –
gələrdim gördükcə imana-dinə.

acı günlərimə bal qata-qata
ötən günlərimdə at oynadardım
qalxıb göy üzündə yeddinci qata –
sevgi ilahəsin mən oyadardım.

qayıda bilsəydim dünənə, Gülüm
dözüm aparardım bü gündən ancaq
qayıda bilsəydim, ay ömrüm-günüm
sevgi gətirərdim mən qucaq-qucaq.

qayıda bilsəydim- eh bu da arzu
kimə gülməlidi, kimə də yalan
mən öz istəyimi qoydum ortaya –
hər halda sən şair sözünə inan.

◆◆◆

bu günün yazısı çox qarışıqdı,
nə əvvəl oxunur, nə son oxunur
adı bilinmyən bir qatışıqdı
bu da ürəiymə yaman toxunur.

bu günün ovqatı bir az turşməzə
bir az lilli sudu, bir az dağ çayı
sanki tuş gəlmişəm bir dil bilməzə
gərilib əsəbin dörd yerdən yayı

bu günün hər anı həsrət havası
ona nə ad versəm dəyişən deyil
barı sən insaf et, ay qız anası –
göstər istəyimə bir azca meyli.

◆◆◆

mən əslində
bu günü
yaşamadım
bu gün sənin
etirafınla
qaldı yadımda
və bir də
bu gün
dünənin davamı deyildi –
çünki
böyük bir sevgi var idi-
dadında!
mən bütünlüklə
anladım ki,
İlahi güc var
özünü sevgisində
tapan qadında!
bu günü
yaşamaq üçün
hazıram
haqdan gələn sevginin
ömrümün sonuna tək
yanmaq
üçün odunda!

◆◆◆

təqvimdəki yeni il
yanvarın ikinci günü
mənimüçünsə
heç nə yeni deyil –
təkcə səninlə
bu günki görüşümdən
ömrümə hopan
ləzzətdən başqa...
təqvimdə yeni il
daha dəqiq desəm
ilk ayın ikinci günü
könlümdən
keçən
bir duyğu var
deyəcəm düzünü –
razılaş
ləzzət dolu bu günü
mənimlə hər gün
yenidən başla.

◆◆◆

mən hələ də
bölüşə bilmirəm
özümü sənlə
ruhum sənlədi
cismimsə məndə...
hər gün başlayıram
sözümü sənlə ünvanım səndədi
ismimsə məndə...
mən hələ də
bölüşə bilmədiyim
özüm də
gah sən oluram,
gah mən
mən hələ də
görüşə bilmədiyim
özüm də
gözlərini axtarıram
məni görə
bilmirsən sən?

◆◆◆

hardan düşdü könlümə
o ocağın bu odu
yar gəzirəm ömrümə –
axır tapdım – bu, odu!

qaşı, gözü yerində
dili, sözü yerində –
vallah özü yerində –
özü təkdi – bu odu!

od  salmağa can gəzir
qandı vallah, qan gəzir
təkcə məndən yan gəzir –
tək mələkdi – bu odu.

◆◆◆

qar yağır pəncərəmdən
baxıram, izim təkdi
bu qar bir xatirə tək
məni qoynuna çəkdi.

xəyalımda qol-qola
sənlə gəzdim qar üstə
ay qar atan, asta ol
inciyərəm yar küssə...

mən qara pəncərədən,
yar mənə hardan baxır...
ayrı düşəli səndən –
qarlar ömrümə yağır.

◆◆◆

mənim də duyğularım
bir az kövrək, bir az sərt
mənim də yuxularım –
nə dil bilir, nə də şərt

sev məni sevdiyim tək
sən məni sınağa çək
könlümə bir ümid ək –
adı olsun məhəbbət.

ruhum dönsün limana
gəlsin dinə, imana
biz qovuşan zamana
yaz gətirsin təbiət.

indi qaş-göz etməyim
yolun üstə bitməyim
bülbül kimi ötməyim –
haqdan paydı, Əbülfət.

◆◆◆

vaxtı qarışdırmışam,
aç qapını – vaxtı, de!
ürəyimi ovundur –
eşq-səninçün taxtdı – de!

gözümün işığını
qatım işıq selinə!
bir də görüm qollarım
dolanıbdı belinə

gecə-gündüz fərq etməz
sənindi bütün anlar
səni mənim tək sevən
məni sənin tək anlar

qarışıq düşən vaxtda
hakim də, hökm də sən –
məni yaşadan eşqin –
qanında, kökündə sən.

◆◆◆

qar yağdıqca ağ bələnir ruhuma
gəzəcəyəm bu qar altda doyunca
əllərimi sən al, isit qoynunda –
qar ovmuşam barmaqlarım donunca.

bir tək iz var düşüb elə ardımca
məni qoymur bu qar üstə tək qalım
istəyirsən gözlərinin yadında
şaxta baba qiyafəmdə çək, qalım.

qar yağdıqca mən özümdən köçürəm
yuvam göydə qar dənəsi boydadı
tellərindən, yanağından öpürəm –
qar dodağım bal əmməkdən doymadı

bu qar altda qoşalaşan ruh hanı
ruhumuzu görk eləyə, göstərə,
bu qar mənim  söylədiyim duanı
kaş yetirə ismi pünhan kəslərə.

◆◆◆

indiki anda
fərqinə varmıram
əslində
heç nəyin...
nə günün, nə saatın
çünki mən
mənasını
sənin sevgində
tapmışam
yaşadığım
həyatın.

◆◆◆

dünyadan nəsə ummağa
halım, nə həvəsim qalıb
oduna düşüb yanmağa
bir quru nəfəsim qalıb.

yerlə-göy arasında
bir cüt gözün qarasında
dünyanın bir parasında –
dörd divar qəfəsim qalıb.

ovcum dolu duman, çənlə
yol gedirsən qəm içənlə.
nəyim vardı-böldüm sənlə –
mənə artıq səsim qalıb.

sıxır bulud göydən məni,
yer də salıb heydən məni
ayırmayın meydən məni –
bir az onla bəhsim qalıb.

◆◆◆

canım! – gecənin dar vaxtı,
özüm-özümə qəniməm
Allahım yazdığı baxtdı –
qaça bilmirəm – səninəm!

göydən yuxarıda göyün
ruhu tək sinəmdə döyün.
hər yerdə, hər zaman öyün –
daş üstə bitən dəninəm.

vaxtı gələr tilsim açarıq
biz qanadsız da uçarıq
sən sevgi adlı ucalıq –
mən də ki, duman, çəninəm.

hər ana, günə duam var
səni isidən şuam var.
gülüm, qoynunda yuvam var –
bilirsən ki, vətəninəm!

◆◆◆

bu bir qəribə sevdadı
elə bir daşda od bitib
cənnətdi sevgimin dadı –
dilimdə bircə ad bitib.

ağa-qaraya baxıram
bilmir haraya baxıram
təzə yaraya baxıram –
dünənki köhnə çat bitib.

◆◆◆

gözlərim göz axtarır
könlümdə sir gəzirəm
başına dolanmağa –
and içib – pir gəzirəm.

biz kəsişən yolmuşuq,
bulud kimi dolmuşuq
ikimiz bir olmuşuq –
onunçün bir gəzirəm.

həsrətə turp əkməyə
vüsala diz çökməyə
sevgimi car çəkməyə –
açıq efir gəzirəm.

## Qorxmadan sevməkdən...

həsrətim özüm boydadı
çəkdi şirəmi doymadı
başımda qılınc oynadı –
qorxmadım sevməkdən səni.

min ümid bir güman oldu
çən endi, yol duman oldu
çox sözüm ah-aman oldu –
qorxmadım sevməkdən səni.

gözümə ağ-qara gəldi
yara üstən-yara gəldi
dedim ki, vur, hara gəldi –
qorxmadım sevməkdən səni.

◆◆◆

mən talehlə yarışda
vuruldum hər qarışda
bu savaşda-barışda –
qazancım dözum oldu

dırmaşdığım yol-yamac
zəfər oldu son amac
sevgi adlı şah ağac –
ocağım, közüm oldu.

həsrəti çox qınadım
çox üzünə sınadım
bülövləndi inadım –
dönüb mən özüm oldum

xəbislər görə indi
bu həyat görənindi
ürəyim ürəyindi –
gözlərin gözüm oldu!

# Yazmaq istədiklərim

yazmaq istədiklərim
qələmimlə danışmır
qaçır yazı masamdan –
vərəqlərlə barışmır
nə qədər dil tökürəm,
qarışmır ki, qarışmır
su üstə ləpə kimi.

yazmaq istədiklərim
yuxu həddini keçib
dözmək istədiklərim
qorxu səddini keçib
pozmaq istədiklərim
daha bəndini keçib
sonuncu tikə kimi.

yazmaq, yozmaq, ya da ki
dözmək, pozmaq daha gec
kimlər salıb yada ki,
kimlər deyib başa keç
Tanrıdan nida yoxsa
mələklər də bilmir heç –
irəli çəkə kimi.

◆◆◆

istədiyin gün,
istədiyin an
istədiyin yerdə
səninlə üz-üzə
göz-gözə
nəfəs-nəfəsə...
hazıram can
qurban etmyə
can!
və bir də
həsrət adlı
qəfəsə –
üsyan –
ürəyimin səsidi bu
inan!

◆◆◆

sonu görünmür
çəkdiyimiz qəmlərin
bəzən bulud çox olur,
bəzən də ki, yağış
sırası da seyrəlir
dostların...
həmdərdlərin...
bu günə şükür edib
deyirsən ki, nə yaxşı
dünən varmış!
qəribədi!
dünən də
ondan öncəki günə
üz tutub, şükür etdim
qəlbində zərrə boyda
yer vermədin sən kinə,
inciyəndə sakitcə
durub, ayrılıb getdin –
şükür dualarınla
əzabdan da kam aldın.
sən ümid işığı tək,
mənim könlümdə
qaldın!

◆◆◆

dolanbac yollar yaman
fırfıradı çevrəmdə
qəlb nurumu hər zaman
gəzdirirəm çöhrəmdə.

dərə-təpə, yol-yamac
mənə sən az əl-qol aç
sözdü mənə tək əlac –
tükənməsin təknəmdən

ömür min cür bölünür
min cür də tor hörülür.
ortaqlıqda görünür –
əkdiyim də, bəhrəm də!

◆◆◆

həsrət cəhənnəm odu
yanıram, yaxılıram
sənsiz dünya bir qəfəs –
içimdə sıxılıram.
ürəyimi qəm dəlir
başıma od ələnir
hamı üst-üstə gəlir –
mən isə çıxılıram.

al ruhumu, sən bələn
oyan gülüm, silkələn
sizdən uzanıb gələn
yoluna yıxılıram.

◆◆◆

sən ölən ümidləri
göndər, baxıb əfv edim
sındırdığın ürəkdə
sıra ilə dəfn edim.

dayanım keşiyində
onsuz da yuxum yoxdu.
bu məzar beşiyində
qazılası yer çoxdu.

çəkinmə sən məzarlıq
etirafçün xoş yerdi.
sən olmayan cənnət də –
mənim üçün boş yerdi

heç vaxt işıq xəttində
sönən lampanı sayma,
mənəm sənin bətnində –
ruhunam, ruha qıyma.

ölən, itən ümidi
soraqla yar könlündə
ruhumla qoşa gəlib
adım da var könlündə.

◆♦◆

söylə, bir çarə göstər
könlümə hörüm səni
yuxum da gəlmir yatıb
yuxumda görüm səni

tikan üstə gəzirəm
cismim İsa günündə
mən səcdənə gəlirəm –
hər gün sevgi dinində.
adın başlayan hərif
yoxdu mənim adımda.
yaşayırsan bir zərif –
çiçək kimi yadımda.

ay filankəs, ay canım
filan işi, filan et
gəl yuxuma, həsrəti –
vusalınla talan et.

◆◆◆

ay üzünü gizlədən,
üzündə üz görürəm
üzün üzüm üstədi –
üzündə köz görürəm.

yanaqların alışıb
baxışımdan yanır, bax.
gözünə çən bulaşıb –
gözümün içinə yağ!

kirpiyindən asılıb
dodağından tam dadım
ürəyinə yazılıb –
böyük hərflə adım.

ay üzü, gözü gözəl
nur tək mənə hopmusan
mən səndə, sən də məndə –
cənnətini tapmısan.

◆◆◆

son günlər
ürəyimdə
çevriliş olub sanki
ya da dünya kiçilib...
sığa bilmirəm
nə ürəyimə,
nə dünyaya
nə sevincə,
nə dərdə...
nələr baş verdiyini
anlamıram qədərdə...
mənə elə gəlir ki,
ancaq sən olmalısan
gözüm görən,
ruhum olan
hər yerdə...
son günlər
səni daha dəlicəsinə
heç kəsin bacarmadığı
Məcnunun məcnunluğundan da
artıq
sevmək üçün
ölüb-dirilmək
istəyirəm
bir də...

◆◆◆

nə qədər çətin imiş
sonuncu ümid olmaq
nə qədər asan imiş –
sakitcə unudulmaq

◆◆◆

qoy çəkilsin göy üzünə bu sevgi
onun yeri mələklərin sinəsi...
bu gözəli ürək dolu sən sev ki,
yer üzünə gəlməyibdi bələsi.

◆◆◆

bilmirəm bu yuxudu,
yoxsa gülüm, möcüzə
oturmuşuq yanaşı,
oturmuşuq göz-gözə.

danışırıq fikirlər
adda-budda və heç nə
sanki gözlərin deyir,
dayan, sərhəddi keçmə.

yol nə yaman qısadı,
vaxt də şimşək çaxımı
məndən qaçır elə bil
ömrün zaman axını.

ürəklərin dünyası
dilə gəlmir, bəllidi
ordan-burdan danışdıq,
bu da bir təsəllidi.

◆◆◆

sözüm yerə düşmədi,
yanaşı addımladıq,
görənlər bilmədi ki,
biz doğmayıq, ya yadıq.

sadəcə hər birimiz
göz dolu, ürək dolu
sevgidən danışmadan
ölçüb getdik bu yolu.

neçə duyğu, o anlar
dilə gəlmək istədi
qoymadı baxışların
sözün gözüm üstədi.

o anları yazıram,
ömrümün ağ gününə
bu qismətlə çıxacam
sevənlərin önünə.

◆◆◆

gəl biz tutaq əl-ələ
gedək vüsal dalınca
gedək, bir də axmasın
göz yaşaların balınca.

qoşalaşaq, ürəklər
bir ahənglə döyünsün
bizə baxsın mələklər,
yer də, göy də öyünsün.

arzuların işığı,
günəş boyda nur olsun
sevgimiz ömür payı,
sevgimiz qürur olsun.

gəl biz tutaq əl-ələ,
həsrət görüb mat qalsın
ömrümüz keçsin belə,
nə varsa sevgi alsın.

◆◆◆

yorma məni onsuz da –
canımda can qalmayıb
canım keçib canından,
təzə də can almayıb.

axarsız su yeri tək,
gölmələnib, illənib,
gözü qəm görmüş çiçək,
gözündə qəm gillənib.

azı, soxu nədirsə,
qarşıdakı bu ömrün
sevgim nəsə gətirsə,
fərmanımdır hər əmrin.

◆◆◆

əllərin buz kimidi,
qoy isitsin nəfəsim
sən qarşıma çıxandan –
dünya olub qəfəsim.
dodaqların titrəyir,
kipriklərin ucu nəm.
mənim kimi səni də-
beş gününün üçü qəm.

təbəssümün gülabdı
gül, yayılsın canıma
bil, cəlladlıq günahdı
batma mənim qanıma.

qoy tellərin sevinsin
sevinc ömrün bəzəyi
qoy əllərin isinsin –
ürəyimin özəyi!

◆◆◆

şaxtaya düşmüş güldü –
baxıb özünə güldü
gülə-gülə də öldü –
ürəyim...

bu sevgi bir mənzərə
açıq qapı, pəncərə...
tuş gəldi küt xəncərə –
ürəyim...

haqqımı suya çəkdin
yerində zülüm əkdin
əvvəl də belə təkdin –
ürəyim...

◆◆◆

mən özüm bu dünyada
ölürəm diqqət üçün
bir az şıltaq təbəssum
və şirin xiffət üçün

ürəyim mənə misal
gəzir, arayır vüsal
neçə cavabsız sual –
qalıb Əbülfət üçün.

gözüm görür, vurulur,
haqq mizanı qurular
içimdə od qorunur –
bir az da nifrət üçün.

◆◆◆

mən qəriblik çəkdim anam,
ürəyim dərdli böyüdü
ad – sanımla çox öyünmə
bu bir şair hay-küyüdü.

mən od geydim, alov içdim
canımdan can çıxanadək
dərdi saydım, qəmi biçdim –
ağzımdan qan çıxanadək

ruhum uçdu, yuvası boş
çarpazlandı əlim, qolum
boşa çıxdı duası boş –
bu dünyadan, keçdi yolum

mən qəriblik çəkdim, anam
özümü sıxdım saxladım
öz şəklimi çəkdim, anam
xəlvətdə çəkdim, ağladım.

◆◆◆

bəxt deyilən bil ki, nədi
əvvəli nə, ilki nədi.
ortalıqda kim kimədi-
sınan ürəyi oxşasın

haqdan qopub çıxan əlim
dərd əlini sıxan əlim
özün oda yaxan əlim –
yanan ürəyə oxşasın

nələr görür üzüm-gözüm
daş deyiləm susum, dözüm
qoy sınayım, küsüm özüm-
qanan, ürəyi oxşasın.

◆◆◆

mən bir az çətin adamam,
bacarsan, bağışla məni.
dərd çəkən mətin adamam,
bağışla, bağışla məni...
heç zaman könül incitmək,
məqsədim, qəsdim olmayıb.
qəmdən, sevincdən bağlanmış
bircə qom dəstim olmayıb.

ürəyim hakim kəsilib,
səsini fərman bilmişəm...
başıma harda nə gəlib,
hamısın dərman bilmişəm.

ürək anamı ağladıb,
dəli tək sevmək öyrətdi.
bağışla, mənim alovum
səni də qarsıb göynətdi.

mən bir az çətin adamam,
bənd olma, keçib gedəcəm
bağışla çəkim dərdini –
qalanın zaman edəcək!

◆◆◆

heç nə deyə bilmirəm,
dil-dodağım quruyur.
ürəyin arxasınca,
ayaqlarım sürünür.

yerlə-göy arasında
koma qurdum – boşluqda...
nə get deyir, nə də gəl
ciddi, ya da xoşluqla!

sanki qəsdi zülümdü,
etsin, eli güldürsün...
zülümkar öz gülümdür –
istəyir lap öldürsün.

◆◆◆

daha çıxıb gedəcəm,
gedəcəm hara gəldi...
bütöv ürək vermişdim –
üstümə para gəldi...

getməyim, bəs neyləyim?..
ömrün yarı yaşında,
kim mən tək Məcnun olub?
ağlı-huşu başında

həsrət ilə mən ölüb –
itməyim, bəs neyləyim?..
dağılmış yurd yerimdə
nə qalıb ki, daşına?
dərdlərin sinəsində
dönüb bir baş daşına –
bitməyim, bəs neyləyim?..
bu da yarış meydanı

qaçan kim, qovan kimdi?
mənə kor quyu qazan –
zaman özü hakimdi
ötməyim, bəs neyləyim?..

# Nağıl

Ətəyimdə daş-
ovcunda qum,
ağzımda su-
Daşıyıram.
İynə boyu-
divar hörüb

Ev olacaq ! – deyirəm bu.

Əsirlikdə –
Evim, mülküm
İstəmirəm-
Qədərimə boyun büküm!

Onun üçün , çadırıma –
ətəkdə daş,
ovcunda
qum, ağzımda su-
Daşıyıram.
İynə boyu qalxan divar-
Ev olacaq!
Bu ümidin kölgəsində yaşayıram !

◆◆◆

Məndən yuxarıda Tanrım
Məndən aşağıda mənəm.
Tanrının şəriki yoxdur-
Mən özüm özümə tənəm.

Səpələnib Muğan-Milə,
Dodaqda çat, gözdə gilə.
Bu vətənsiz canım ilə-
Mən də dərd-qəmə Vətənəm.

Bun ə cürə ağıl-başdır,
İçimdəki ağrı-daşdır!
Yüküm yaman ağıırlaşdı-
Dözməyib ölüb-itənəm.

◆◆◆

Elə ağrı var ki
Həkimlik deyil
Sadəcə.
Bir əlini ürəyinin ğüstünə qoyub.
Birini də,
Gözünə günlük etməlisən.

Elə ağrı var ki,
Özü gəlməyəndə
Durub dalınca getməlisən!

Elə ağrı var ki,
Nə vərdişdm, nə adətdi.
Nə də qəbahətdi-
Bu ağrının bir Adı var-
O da məhəbbətdi!

## İşıq

### Ramiz Rövşənə

Bu gecənin aydınlığı,
İçimdə uyuyan işıq.
Gizli sözüm, sirrim yoxdur –
Amma səndən çoxu qorxur-
Ay məni qoruyan işıq !

Mən işıqla sevişmişəm,
Əzəldən dərd bölüşənəm.
Lap elə Ramiz Rövşənəm-
«Buraz məni, Ay işığı...»

Göydən , yerdən tanrım yox,
Daş deyiləm, tanrım yox.
Dupduruyam-camırım yox-
İçimdədir Ay işığı

◆◆◆

Sən Allah sən məni...
Sevinc damlaları sülh quşu olsun.
Qopsun kirpiyindən, qonsun sinəmə.
Dərdin dərdlərinin tay-tuşu olsun,
Sən Allah , sən məni dəli eləmə.

Qoymursan oynadım telini tək-tək,
Öpdükcə doymadım telini tək-tək
Küsürəm, deyəndə əlini tez çək-
Sən Allah , sən məni dəli eləmə.

Nazın xoş olsa da , incildir hərdən,
Başımı itirdim verdiyin dərddən.
Əgər istəyirsən qışqımı bərkdən
Sən Allah, sən məni dəli eləmə

◆◆◆

Sən ola bilmədim
Məndən qaçıb gizlənirsən
Xoş halına...
Bacarırsın qaçmağı da
Bilmirsən ki,
Ürək sənin yanındadı
Addım-addım işlənirsən ...
...Barı ona
Öz xətrinə,
Söz xətrinə,
Öyrət noolar-
Səndən bir baş açmadı da!..
Belə olmaz,
Belə qalmaz,
Ürək şüşə-sına bilər...
Saçın rəngi dəyişdiyin,
Saə özü yox , xına bilər...
Onda sənin qaçmağına
nə ad verim?
Ürəyə də gücüm çatmır,
Ona bir güt qanad verim.
Uçsun geri...
Boş qalmasın dərdin yeri.

...Mən özümə
Sevgi payı,
Sevinc payı,
Ümid payı,
Cəza payı,
Ömür payı...
VƏ nəhayət
Özüm bilib, seçdim səni!
Özüm oldun mənim üçün,
Amma heyhat sənsə məni
Sən bilmədin, sənin üçün!

## Bəlkə tanış gəlmirəm

Məndən mənə yaxınsan,
Məni oda yaxırsan.
Niyə elə baxırsan
Bəlkə tanış gəlmirəm?

Bira vaxtlar sevginə ac,
Ötənlərə işıq saç.
Yaddaşın qapısın aç-
Bəlkə tanış gəlmiəm?

Eh... nə deyim zamana,
Yer qoymayıb Amana.
Döndərib bir kamana-
Bəlkə tanış gəlmirəm?

Dadaqların bal dadan,
Neçə aşiq aldadan.
Mənəm-həmən oğlanam-
Bəlkə tanış gəlmirəm?

# İçimdən gələn dilək

*Övladlarıma*

Daş divarın olsaydı,
Duz əvəzi yalayardım.
Ocaq yerim olsaydı.
Cırçırpıdan
Ocaq çatıb qalayardım.
İnsan ömrüm olsaydı
Babəkimin,
Nilufərin,
Sənubərin-
Gül ömrünə calayardım.
Neynəyim ki,
Yoxdur hələ
Ocaq yerim-
Ocaq çatıb qalamağa!
Neynəyim ki,
Dərddir mənim
Şair ömrüm,
Əlim qalxmaz
Övladların gül ömrünə-
Dərdli ömür calamağa!
Ümid ylnız sənə qalıb,
Sənə Allah!
Buludundan
Göz yaşı ver
Bu qurumuş gözlərimə
Öz-özümü ağlamağa!

# Bilər

Kimdi deyən baldı sevgi,
Kardı, kordu, laldı sevgi.
Ürəkdə bir xaldı sevgi-
Laləyə çevrilə bilər.

Özü özünü unutdu.
Bil ki, kövrəlmiş buluddu.
İçi qor dolu sükutdu-
Naləyə çevrilə bilər.

Ömürdü, qismətdi Adı.
Dərdə verib güldürər yadı.
İstəsə sönük həyatı,
Jaləyə çevirə bilər.

## Fasiləsiz yağan yağış

Fasiləsiz yağan yağış,
Daşım , divarım çadırdı.
Daldaşına sığındığım
Bu «ev» bir böyük çətirdi.

Fasiləsiz yağan yağış,
Divarını çürüdürsən.
Halıma yanan Tanrını
Göz yaşıyla kiridirsən.

Fasiləsiz yağan yağış,
Uzat,yapışın əlindən.
Qayıtmaram bir də yerə,
Gəlib atamın belindən.

Fasiləsiz yağ ay yağış,
Əriyib qarışım selə.
Heç yerdə gərək deyiləm
Bu görkəmlə bundan belə!

## Bir salam göndərdim

Əridib qayğının, qəmin içində,
Verdim göz yaşına öz həyatımı.
Hərdən darıxanda sənin üçün də
Bir salam göndərdim, gəlib çatdımı?

Xəyala bürünüb, işıq aradım
Zaman baltaladı qol-qanadımı.
Bircə dərd çəkməkdə-dərddə yarıdım
Bir salam göndərdim, gəlib çatdımı?

Dünyada kimsədən ummadım heç nə,
Ölçdüm ürəyimdə hər bir addımı.
Məni görüşünə çağıran səsə-
Bir salam göndərdim, gəlib çatdımı?

Demə taleyimə mən küfr etdim
Yazıldı bir qızın qəlbinə adım.
Seçdiyim iqismətə min şükür etdim
Gərək salamı da özüm çatdıram.

**

216

## Dönər xatirəyə

Ovcunun içində üşüyən bir əl,
Gözümün önündə əsən dodaqlar.
Boynuna sarılıb oxşayır məni
Çiynimə kölgəsi düşən budaqlar.

Bilmirdim başıma gələr, İlahi,
Nələr yaşayırdım , nələr, İlahi.
İçimdə bir sevgi mələr, İlahi,
Əriyər odunda , yanar bu dağlar.

Kövrək duyğulara söz olar adım,
Onu isindirən köz olar adım.
Bir gün dodağında közərər adım
Dönər xatirəyə , onda bu çağlar.

# Canına And içirəm
## (zarafat)

Canın mənə əzizdir
Canına And içirəm.
Mən canının boyuna
Can sağlığı biçirəm...

Boğazdan yuxarı söz,
Yaraşmaz ki, dilimə
And içəndə alıram
Ürəyini əlimə!

Təbəsümlü andımı
Sən «eh»lə ötürürsən.
Hər dəfə inanmayıb,
Bir sağlıq «itirirsən»

# Sev

Niyə kövrəldin belə,
Yanaqlarımı sildin.
GÖzünü gizlətməklə,
Nəyi gizləyə bildin?

Könlündəki bəllidi,
Onu dilə gətirmə
Söz özü təsəllidi,
Ümidini itirmə.
Sev!- ürəyin tutunca,
Sev!-qorxma, sev doyunca.
Özünü unudunca
Sev-ömürün boyunca.
O gözlərin qəm üçün
Doğulmayıb düşün, bil
Ömürlük həmdən üçün
Sil gözünü , gülüm , sil!

## Belə yaşayıram

Hər gecə yuxuma girir əllərin,
Hər gecə saçımda sığal duyuram.
Yuxuda gördüyüm zərif əllərin
Həsrəti göynəyən barmaqlarımla
Hər səhər saçımı sığallayıram.
Belə yaşayırma, belə əzizim.

Gözümdə yolların düyün yerləri,
İçimdə göynəyən sözsüz söhbətlər.
Dilimə gəlməyən neçə sirləri
Açdıqca, duyduqca məni töhmətlər
Boğular, hıçqırar-qırılar səsim
Belə yaşayıram, belə, əzizim.

Dünyanın hər üçüz ovuc içitək,
Dağına da görürəm, aranında mən.
Daha yuxulara eyləmirəm şəkk
Əlimi hovxurub boranında mən
ÜIşüdüm, göynədim, bəsimdi, bəsim.
Belə yaşayıram, belə, əzizim.

Beş gün də, on gün də ömürdən gedir,
Yaşanan anlara yaşımmı deyim

Sənli günlərimə yazım, baharım
Sənəiz günlərimə qışımmı deyim?!
Saralır, tükənim daha nəfəsim
Belə yaşayıram, belə, əzizim.

Dörd divar arası-qəfəs kimidi
İsitmək olmayır soyuq daşları
Bu günlər son ümid – nəfəs kimimdi
Qovur içimdəki bütün qışları,
Sən ki, qəlbimdəsən,bəsimdir, bəsim
Belə yaşayıram,belə,əzizim.

◆◆◆

Havadan asıblar məni,
Ayağım torpağa çatmır.
Nə qədər cəhd göstərirəm
Dodağım yarpağa çatmır.

Nəfəsim tıncıxır tamam.
Nə olar yıxılıb ölsəm.
Sən baba olmadan Adəm
Deyərdim, üz-üzə gəlsən...
Biri də saldın oduna,
Hamımız sevgi dəlisi...
Acı xatirə danışır,
İndi hər yüzdən əllisi...

# Olmadı

Allah adını yaratdı,
Adamdan Adam olmadı
Hərə bir cürə baş qatdı
Topası Adəm olmadı

Özümə bəsdi öz dərdim,
Ömrüm üuzunu söz dərdim,
Hamıya kömək göstərdim,
Özümün Adam olmadı.

Gözdən, köüldən uzaqda
Təsəllim qələm-varaqda
Asılmağa, dar ayaqda
Bir sakit adam olmadı...

◆◆◆

Danışdırın, qoymayın
Tikirlər udsun məni.
Başın qatın dərdlərin
Bir az unutsun məni.

Sükutun ağırlığı,
Sıxıb , çəkir şirəmi.
Qaldırmışam çiynimə,
Sanki mən bu kürəni.

Bu qədər dərdi yalqız,
Çəkməyimdən bezmişəm.
Biganəsən, mən yalnız
Gülüm, buna dözmürəm.

◆◆◆

Yorulmuşam içimdən
Bezikmişəm köçumdən
Allah, mənə ölçümdən
Böyük dərd göndərmisən
Əynimə gen-bol olur...

Yandı evim-eşiyim
Yandı divarım, daşım
İçim, qoyma üşüyüm
İsit məni, göz yaşım!...
Bir qış nağılıdı bu qaş gecəsi,
Şaxta da , sazaq da köhnə tanışım.
Təkcə evim yoxdu, balalarımı
Toplayıb başıma nağıl danışım...

Ağrım çəkdiyim, dərdli çəkdiyim
Bu boyda Bakıda dərddi çəkdiyim!
Mənim azadlıqda şərti çəkdiyim
Cəzanın adını çəkənlər bilər...

◆◆◆

elə bir addım atdın,
vallah çaşdım önündə...
Bütün dünya görəydi-
məni kaş bu günümdə!
dilim də qıfıllandı,
eləcə baxıb durdum.
inan düzün deyəcəm,
sənə təzdən vuruldum...
tanrım özü şahiddi,
ürək sığmır köksümə...
sən öz böyüklüyünlə
nur çilədin üstümə...

# Dağlara

*Dostum, qardaşım*
*Dilavər Əliyev üçün*

Çoxmu boynu bükük duraq,
Baxaq ağlayan dağlara?
Əlimizlə sığal vuraq
Sinə dağlayan dağlara.

Uzaq gəlir hönkürtümüz
Çıxaq yağı söndürdüyü,
Ocaqdakı son kötüyü
Gİrov saxlayan dağlara

Gəzək, tapaq izimizi
Vuraq yerə dizimizi
Qurban deyək özümüzü
Qara bağlayan dağlara.

Alovlanaq, oda dönək
Kola, kosa, ota dönək
Ölək, amma ora dönək
Bizi haylayan dağlara.
Yorulmuşam içimdən

Bezikmişəm köçumdən
Allah, mənə ölçümdən
Böyük dərd göndərmisən
Əynimə gen-bol olur...

Yandı evim-eşiyim
Yandı divarım, daşım
İçim, qoyma üşüyüm
İsit məni, göz yaşım!...

Bir qış nağılıdı bu qış gecəsi,
Şaxta da , sazaq da köhnə tanışım.
Təkcə evim yoxdu, balalarımı
Toplayıb başıma nağıl danışım...

Ağrım çəkdiyim, dərdli çəkdiyim
Bu boyda Bakıda dərddi çəkdiyim!
Mənim azadlıqda şərti çəkdiyim
Cəzanın adını çəkənlər bilər...

◆◆◆

Mən dünyadan küskün adam,
Yollar yormuş üzgün adam.
Evi yanmış düzgün adam-
Tanış olaq, sevinərəm...

◆◆◆

Dünyam o qədər kiçik ki, dar ki,
Taleyin o qədər oyunu var ki,
Sən məni özünlə götür apar ki,
Həmişə gözünün önündə olum.

# Gözlərini gözlərimdən gizləmə...

Gözlərini gözlərimdən gizləmə,
Gözətçidir gözlərinə gözlərim.
Gözlərimdən gəzəntəlik gözləmə-
Gözündədir, gəzdirdiyim gözləim.

Əllərini əllərimdə əyləndir,
Əllərindən əlimə od ələnsin.
Əllərimi əllərinə geyindir,
Ya da əlim əllərinə bələnsin.

Xəyalında xəyalıma yüyrük qur,
Xəyalınla xəyallanıb görüşüm.
Xəyalıma xəyalından kilid vur-
Xəyalında xəyal boyu görünüm.

◆◆◆

Gülüm, əllərim dibçək
Saçın-ovcunda açmış çiçək.
O qədər oxşamışam,
Yüz ildən sonra da
Soruşan olsa –
Gözlərim, əllərim
Su kimi içəcək tellərinin sayını.

# Göz yaşlarım gözlərimdə çiçəklər

Göz yaşlarım gözlərimdə çiçəklər,
Kirpiklərim göz yaşının saplağı.
Damlalarsa qopub düşən ləçəklər-
Yanaqlarım ləçəklərin tapdığı.

Dərinləşir alnımdakı qırışlar,
Sahilləri Araz təki qəm çəkər.
Siz baxmayın mənə belə birtəhər-
Baxışımdan baxışınız nəm çəkər.
...Xatirələr olan-qalan varımız,
Nəyim qalıb xatirədən savayı.
Min əzabla qazandığım sevgini-
Ara yerdə, yelə verdim havayı.

# Öyünmə ki...

Əlin əlimin üstə,
Adın dilimin üstə.
Getsəm ölümün üstə-
Gözlərimi qırpmaram.

Həsrət mənə od vurub,
Gah uçurub, gah qurub.
Peşman-peşman oturub
Dizlərimə çırpmaram.

Sevgim dəniz, mən ada
Ünvanım var, sən adda.
Öyünmə ki, dünyada
Daha səndən tapmaram...

# Həsrətimin ünvanına məktub

Ürəyimin gözlərinə gül ələmə,
Göz dağına dözmək çətin...
Gah da onu
Sallxım kimi gilələmə-
Orda mənim ilk
müqəddəs məhəbbətim.
Sən sevmirsən, öz işindir...
Yəqin səni sevən çoxdur.
Arxayınsan,öz gələcək taleyindən.
Mənim isə...
Ürəyimin bəhrəsidir bu məhəbbət-
Tapdamağa haqqın yoxdur.
Günahımı özümə de,
Qüsurumu özüm bilim.
Sevmirsənsə-üzümə de
Çıxıb gedim, yolun üstən-
Çıxıb gedim, ilim-ilim.
...Mən bitməzdim, məhəbbətin
Yüngülü var, ağrırı var.
Qazandığım bu məhəbbət.
Ürəiymdən mənə baha.
Hər oyunun bir sonu var,
Axırı var-
Uşaq kimi oynatdığın yetər daha...
Günahımı özümə de,
Qüsurumu özüm bilim.
Sevmirsənsə üzümə de-
Çıxıb gedim yolun üstdən
Çıxıb gedim, ilim-ilim...

## Ürək, sevən ürək ola

Yağış yağa ürəyimə,
Sel güc verə biləyimə.
Tale arzu, diləyimə
Təkan verə, kömək ola,
Ürək, sevən ürək ola!

Vurulmuşam baxışlara
Eşqim qəlbə naxışlana.
Günah etsəm, bağışlana-
Bu sevgimiz örnək ola,
Ürək, sevən ürək ola

Demə mənə, dəli-dolu
Sürüşkəndi! Ömrün yolu.
Dolanaraq şair qolu
İncə beldə , ilgək ola
Ürək, sevən ürək ola!

# Apar ürəyimi

Kəkliksən-hey daşdan-daşa səkərsən.
Küsərsən-uşaq tək boyun bükərsən.
Yollarda sevgisiz korluq çəkərsən-
Apar ürəyimi, gərəyin olar.

Gəlirsən yuxuma mələk donunda
Bizi nə gözləyir, ömrün sonunda?-
Təknəndən üzülər, a gülüm, onda
Sevgimiz əl boyda çörəyin olar.
Bizi ömür boyu sınayır həyat,
Əlinin altında saxla ehtiyat.
Sən ki bu hallısan ...həyatdı, bir vaxt-
Ürəyim ehtiyat ürəiyn olar.

## Doymamışıq məhəbbətdən

Sıxılırıq hər ikimiz-
Sən də, mən də,
Lap boğaza yığılırıq hər ikimiz-
Sən də , mən də
Bu həsrətdən.
Yanırıq biz, hər ikimiz
Sən də , mən də,
Bilərəkdən.
Yansaq da biz,
Be sevgini dpnsaq da biz hər ikik-
miz
Bu həsrətdən
Sən də, mən də gileyliyik.
Çünki hələ də doymamışıq
Məhəbbətdən.

## Payızın önündə

Bu da gözlədiyim həmin o payız...
Bu da o payızın toy – düyün ayı
Bu mənəm, bu isə həmənki o qız
Bu da ki , sevgimin ayrılıq payı.

Yenicə göyərən eşqimin ömrü
Bənövşə ömründən bir az da qısa.
İlqarı Kim dandı, əhdi Kim pozdu-
Payızın önündə gərək o susa.

Sənin tərəddüdün dördü öz işin
Hirsimi səbrim tək dişimlə sıxdım.
İşə bax, toy üçün vədələşdiyim
Payızın yanında yalançı çıxdım.

◆◆◆

Ağ sevinc çiçəyim,
Ağ qəm çiçəyim
Əlim kəpənəkdir-saçına qonub,
Hənirim ilişib-yaxanda donub.
GÖzlərim büstünü sinəmdə yonub-
Ay sevinc çiçəyim, ay qəm çiçəyim.

Dönüb yuxularım olub səksəkə
Kimsəm yox, oturub dərdimi çəkə.
Çoxmu deyəcəyəm görəsən ...bəlkə-
Ay sevinc çiçəyim, ay qəm çiçəyim.

Dilimi diş altda qoya bilmirəm,
Ürək göz deiyl ki, oya bilmirəm.
Mən səni sevməkdən doy bilmirəm.
Ay sevinc çiçəyim , ay qəm çiçəyim.

Gecənin ağlığı gündüzə dəyməz.
Qorxub üşüməkdən gün bizə dəyməz.
Qapımı özgənin əlləri döyməz.
Ay seıvinc çiçəyim, ay qəm çiçəyim.

Bəxtim ad çıxarıb , sözlə, naxışla,
Göyərən deyilmiş, sevgi yağışla.
Əyilə bilmədim...məni bağışla,
Ay sevinc çiçəyim, ay qəm çiçəyim...

# Təbəssümün ömrü

Mənim dodağımın təbəssümünü
Ərəb yazısı tək tərsinə oxu.
Təbəssüm pərdəsi bürünmüşəm ki,
Gülüm, kədərimi görməsin çoxu.

Qurulmuş saata bənzər həsrətim,
Səslənib oyatmaq istər hamını.
Özü alışmayan, özü yanmayan
De hardan biləcək qəmin tamını?

Mən də ki, həsrətə abunəçiyəm
GÖrünə bilmirəm fəsil donunda.
Hələlik təbəssüm bürüncəkliyəm
Tükənir deyəsən, ömrü onun da.

## Anama

Telefonda
qırıq-qırıq
səsini eşitdim,
Elə bil
Xəncə yeridi
Ürəyimə...
Zorla danışdığını
Təxmin etdim
Telefon
Xəcalət çəkirdi
Sanki mənim
Yerimə.
Çadır taleli annam,
Bacarırsan bağıla
İndi nə söz ürvatdadı,
Nə qələm
Əli ciblərinə yük
Sual işarəsi tək
boynu bükük
günahkar bəndə
mənəm-
Sənin fərsiz oğlunam
Heç nə edə bilmirəm.
Ancaq başa düşürəm-
Çat vermiş ürəiyndə
mən Ən böyük
ağrınam...

◆◆◆

Ürək –
bir parça ət
incidirsə
kəs at!-
hdeyirsən
Mən nə qəssabam,
Nə də cəllad...
Bunu
Özün də bilirsən
Sadəcə
Bu bir parça ət
Ürəkdi, Ürək !
Seryan demişkən
«sən ordasan»
sıxılsan da
onunla gərək
məzələnməyəsən!...

◆◆◆

Dağılmış saələrını
Toplamısan ovcuna.
Birin ayır göndər
Sən bu – dəli ovcuna.

Sevgi məktubu kimi
Öpüb sıxım köksümə!
Göylərdə həmin günü
Yer tapmayım özümə!

Qəlbim sənin yanında
GÖzüm telefon arasın.
Saçını xəyalımda
Öpüşlərin darasın.

Bəxtəvər anlarını,
Yaşayım bu həyatın.
Bəxtimə düşən qadın-
SƏNsən şerim, bayatım,
SƏNsən özüm və adım.

## Dönər xatirəyə

Ovcumun içində üşüyən bir əl.
GÖzümün önündə əsən dodaqlar.
Boynuma sarılıb oxşayır məni
Çiynimə kölgəsi düşən budaqlar.

Bilmirdim başına gələr , ilahi,
Nələr yaşayırdım , nələr, ilahi
İçimdə bir sevgi mələr ilahi,
Əriyər odunda , yanar bu, dağlar.

Kövrək duyğulara söz olar adım,
Onu isindirən köz olar adım.
Bir gün dodağında közərər adım-
Dönər xatirəyə, onda bu çağlar.

## Bəlkə tanış gəlmirəm

Mənə məndən yaxınsan
Məni oda yaxırsan
Niyə elə baxırsan-
Bəlkə tanış gəlmirəm.

Bir vaxtlar sevginə ac...
Ötənlərə işıq saç,
Yaddaşın qapısın aç-
Bəlkə tanış gəlmirəm.

Eh...nə deyim zamana,
Yer qoymayıb Amana.
Döndərib bir kaman-
Bəlkə tanış gəlmirəm.
Dodaqları bal dadan.
Neçə aşiq aldadan
Mənəm, həmən oğlanam-
Bəlkə tanış gəlmirəm.

## Quzu kəsim

Səsin niyə titrəyir
Səsinə quzu kəsim
Varmı sənin bir kəsin-
kəsinə quzu kəsim.

Yaşının qız çağıdı,
Yükünün duz çağıdı,
Qoynunun buz çağıdı-
Bəhsinə quzu kəsim.

Baxışın bir od, ocaq
Od saçır qucaq-qucaq.
Minnət qoymuram, ancaq
«hə»sinə quzu kəsim!
Közərir gün ahımdan
Sevgim günəş, azım dan!
Allah keç günahımdan-
Tərsinə quzu kəsim.

## Qoşma

Gözümü bağlayan sevgi,
Öözünü çəkmə gözümdən.
İçimdə ağlayan sevgi-
Əyil, qoy öpüm üzündən.

Mən dərviş misal bir Adam,
Bir az bu dünyaya yadam.
Özümə bəs edir qadam-
Öpür göz yaşım üzümdən.

Araşdırıb yeri, göyü
Dəiyşə bilərəm nəyi?
Özüm-öz kefimin bəyi-
Araz aşığımdan . Kür də dizimdən...

◆◆◆

Dərdə köynək biçmişəm,
Bir az sıxır – dar gəlir.
Dərdim, keç dur arxada-
GÖrüşümə yar gəlir...
Kölgən düşər üstümə!

◆◆◆

Qoymursan dinglik tapım,
Hər an sancır, dinirsan.
Sıxıram ağrıları,
Ovcumda isinirsan-

## Ürəyim!

Sinənin üstə yerim
Canında odum olsa,
Calbində kövrək sevgim,
Dilində adım olsa-
Min ömür yaşayaram...

◆◆◆

Salınmamış vər qalsın,
Tər çiçəklər , tər qalsın.
Mənim üçün dər qalsın-
Otağında bir çiçək...

Sular necə axıb gör
Şimşək necə çaxıb, gör.
Gözünü aç, bax gör-
Yatağında bir çiçək...

Haqdan olan ülfətin
Çəkdim qəmin , xiffətin,
Adı, bu Əbülfətin-
Dodağında bir çiçək.

## Mənə

Heç bir cəhdim baş tutmur
GÖzüm dolub, yaş tutmur.
Ağrım böyük,yaş tutmur.
Sığışmır, ağrı mənə.

Günüm üzü bozarmış,
Günüm günü pozarmış.
Ay gözləri qızarmış,
Ağrı, sən ağrı mənə.

Ömrüm qələm, yol masa,
Bölür məni yol, masa.
Ağrın alan olmasa,
Qoy gəlsin ağrın mənə.

## Allah, məni unutma

Allah, məni unutma,
Yer sürüşür altımdan.
Qırx beşi yola verdim,
Şübhəm var qırx altımdan.

Allah, mənim səbrimin
İpi tez-tez üzülür.
Qapı arasındadır,
Ümidlərim əzilir.

Allah, yolum-yolağam,
Çığnayır dağı-daşı.
Dərdə ki, bir çalağan
Sığıyır adımbaşı.

Allah, məni unutma
Sayırsansa bəndənəm.
Saymırsan nişan verim:
-Adəmlə bir kənddənəm!

◆◆◆

Allahım, sən bizi
Nəzərində tut,
Dərddən uzaq olaq, kədərdən qaçaq.
Bütün axşamları iş avadanlığı,
Bütün səhərləri
Xeyirlə açaq.

# Pıçıltı

Mənim ürəyimə
Yaxın adamlar
Mənim istədiyim
Sizdən heç nədi.
Bir anlıq dayanın,
Baxın,adamlar,
Görün ki ürəiym
Necə təşnədi.
Sizin təbəssümə, sizin sevgiyə...

◆◆◆

Ömrümün yazısı təzələnmədi
Ancaq dərd daşıdı-məzələnmədi.
Nə qədər cəhd etdi,bəzənənnmədi-
Əridi zamanın,bəxtin əlində.

Qismətdən artığa əli çatmadı.
Özündən özünə bir əl atmadı.
Dedilər dəlidi!-dəli yatmadı-
Əridi gümanım, vaxtın əlində.
Heyrət də, qeyrət də düşdü ayağa,
Ümidim üz tütdü o son dayağa.
Mənim Qarabağım dönə bayrağa
Millətin əlində,taxtın əlində!

◆◆◆

Ürək ağrısına adətkar canım,
Bir kəlmə düz sözə qınaq olmuşam.
Dilim yalan bilmir, yaltaqlıq bilmir-
Mən gözdən, könüldən iraq olmuşam.

Atılıb uzağa daşım, ay Allah
Dərdlərə qarışıb başım , ay Allah
Gəlib ha keçsə də yaşım, ay Allah-
Yazılıb atılmış varaq olmuşam.

Niyə talehimlə qəmdi bağırdaş
Mənim dərd daşımdan varmı ağır daş
Gözünü qırpmadan elə yağır daş
Elə bil plitəsiz çıraq olmuşam.

Əbülfət, özünü əkmə ortaya
Sel kəsdi, tay əlin çatmaz o taya
İndii dərdə qynunda döünb adaya-
De ki, tel həsrətli daraq olmuşam!

◆◆◆

Quyu dibindəyəm sanki,
Kəndir sala, çək yuxarı.
Canımda dərdin özüdü-
Nəfəsimdə tər Buxarı.

Ha cəhd edirəm-alınmır,
Əvvəli-axırı itir.
Mən suvaran gül quruyur-
Amma daşın üstə bitir.

Qalıram əlii qoynunda,
Nə edim, kimə nə deyim.
Ay Allah.tamam üryanam
Bir şey at, əynimə geyim.

◆◆◆

Gəl oturaq dirimizi ağlayaq
İkimizdən birmizi ağlayaq.
Görünəcək yerimizi ağlayaq
Görək ölüm hansımıza yaraşır.

Ayların, illərin qonağı oldum,
Bir qəmli sevginin sorağı oldum.
Bütün dostlarımın yarağı oldum,
Özümə gələndə özüm tək qaldım.

◆◆◆

Yükünü çəkmək asandı,
Dərdini çəkməksə çətin...
Bu qədər ömür xərclədin
Öyrənə bilmədin səddin-
Sevginin ...ürəyim...

Qatdın başını xəyalla
Dilsiz-ağırsız sualla...
Sən bu görkəmlə, bu halla-
Düzəldə bilməlin qəddin-
Sevginin... ürəyim...

Əlində bəxtin fərmanı
Dilində taxtın ərmanı
Oxudun , baxdın fərmanı
O qırıp,keçib həddini-
Sevginin...ürəyim...

◆◆◆

Bu gün
Vacib bir işin
Ardınca getməliydim-
Günün birinci yarısı...

Bu gün
Bir ildi vəd verdiyim
Sözə əməl etməliydim-
Gönün ikinci yarısı...

Bu mənim gündəliyim
Yenə alt-üst qalacaq
Hamısı
Çünki
qırx arşınlıq quyudu-
əllərimlə,
ciblərimin arası.
Odur ki, bu gundən də keçdi
Qaldı sabaha
İşlərimin sırası.
Lap erkən oyanaram.
İnşallah!...

# Ömür yoldaşıma

Tutiyyə tək doğulmuşuq deyəsən,
Şəkərmişik, noğulmuşuq deyəsən.
Sonna kimi oxunmuşuq, deyəsən-
Son səhifədə xoş ovqatlı söz qalıb.

Aldatmışıq özümüzü nağılla
Kiritmişik bir təbəssüm noğulla
Bir ömürü iki qıız, bir oğulla-
Keçmişike biz, xoş xatirə, iz qalıb.

Yol gəlmişik sənlə odsuz , ocaqsız
Keçinmişik biz bir isti bucaqsız.
Min şükürlər, neyləyərdik bu çağsız-
İndii bizə gözlə qalıb, döz qalıb.

◆◆◆

Nələr düşünürdüm, nələr qururdum
Bəzən saatlarla susub dururdum.
Vüsal anlarını mən uydururdum
Bilmirdim qəm keçər çaşıb sinəmdən.

Sən demə xəyalla baş aldanırmış,
Ömür budanırmış, yaş aldınarmış
Ürək göy üzündə xoşallanırmış
Ayrılıb torpaqdan, qopub sinəmdən.

Niyə belə oldu, niyə bilmirəm?
Özümü özümə yiyə bilmirəm.
Mən ona yalandan deyə bilmirəm-
Sevmirəm kəlməsin tapıb sinəmdən.

İçimdə bir ağrı, canımda təlaş
Nəiyn üstündədi b udava-dalaş.
Məni ovsunlayıb o yavaş-yavaş-
Bir də xəbər tutdum, atıb sinəmdən.

## Dünyada

Dərdli-dərdli gəzməklə
Guya dərdə dözəklə,
Təke canımdan bezməklə-
Nə dəyişdim dünyada.

Onsuz da vaxt hakimdi
Dərd sinmədə sakindi.
Demirəm ki, ta kimdi-
İncimәsin dünya da!

Ömrü bir göz qırpımı
Yığıb çırıl-çırpını.
Çalıb getdim çırtımı.
Bu da işdi dünyada.

Qayğımı çəkdiyim,
dərdli çəkdiyim.
Bu boyda Bakıda
dərddi çəkdiyim
Mənim azatlıqda
şərti çəkdiyim-
Cəzanın adını çəkənlər bilər

## Musa Yaquba

Mən özümdə güc tapmadım
Düşdüm torpağa
Dərd önündə soldu cismin
Döndü yarpağa
İnnən belə gün yandıran
Köhnə papğa-
Çətin vallah baş tapılsın-
Baş qalmayıbdı!

Göyə baxdım açdığım əl
hələ də boşdu
Sən də qurdun, mən də qurdum
tələ də boşdu.
Şəllənmək, hətta
Şələ də xoşdu-
Tanrımızın əl altda
Daş qalmayıbdı.

Nə baş verib, ucalıqlar
niyə enibdi
heç bilmirəm, zaman
yoxsa insan dönübdü
Quruların yandığı od

çoxdan sönübdü-
Tüstüsündən kor olmağa
Yaş qalmayıbdı.
İddialar boş xülyadı
həqqə varmadan
Ziyarətdən dəm vururlar
şərqə varmadan
indi gözlər çəp baxırlar
fərqə varmadan-
ona görə əyiləsi
qaş qalmayıbdı.
Mən də, sən də
Hamılıqla sıradan
Biri,
İçimizdə qurd da yatıb
Qoyun da diri.
Biz özümüz ağlar qoyduq
Anamız yeri-
Qazdığımız məzarlıqlar
Boş qalmayıbdı.

◆◆◆

Açdım gözlərimi acgözlər kimi
Sənə baxaq üçün ancaq bu səhər,
Gözlərim acından ölür, a gülüm
Nə olar, gözümü doydur birtəhər...

Cəhənnəm ömrümdən qorxdun deyəsən
Əlini əlimdən çəkib gedirsən.
İnana bilməzdim sən də beləsən
Könlümdə baş daşı əkib gedirsən.

Açaq əlimizi yağan yağışa
And içək sevgimiz solmasın deyək.
Nur axan o kövrək nəmli baxışa
Bir də qüssə-kədər dolmasın deyək!

...Ürəyim gör necə çırpınır gülüm ,
Ürəiym heçə məndən fikir soruşmur.
Qalıb ortalıqda uzalı əlim,
Küsüb , ürəiymlə əlim görüşmür.

Biri pıçıldayır, o biri yazır,
Xəyalım uzanan yoldur eləcə.
Gedib ünvanına çatmayan hazır-
Mesajlar ortada qalıb eləcə.

◆◆◆

Cənnət-sənli anlarım
Cəhənnəm-təkliyimdi!
Dünyada ən ağır yük,
Mən, sənsiz çəkdiyimdi!!

# KİTABDAKILAR

Əbülfət Mədətoğlu

**«ÜRƏYİMDƏKİ SƏNSƏN»**

NAŞİRİ
***Qoşqar İsmayıloğlu***

NƏŞRİYYAT DİREKTORU
*Akif Dənzizadə,*
TEXNİKİ REDAKTORU
*Polad Hüseynov,*
KORREKTORLARI
*Fəridə Rəhəmli,*
OPERATORLARI
*Rəna Əzizova,*
ÇAPA MƏSUL
*Cəlil Quliyev,*
*Anar Vəliyev.*

*Çapa imzalanmış 11.11.2009,*
*formatı 60x84 1/16,*
*fiziki ç.v. 38,5, şərti ç.v. 15,5,*
*ofset kağızı №1, tayms qarnituru,*
*sifariş 59,*
*sayı 500.*

*Kitab*
***"ÇİNAR-ÇAP"***
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*

✉ *AZ 1025. Bakı şəhəri, Xocalı pr., 24.*
☎ *T/F.:* ***4989555, 4937255, 4902757***
**www.**chinar-chap.az
**E-mail:** office@chinar-chap.az